RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 8 (9175) 14 YANVAR 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## İlham Əliyevin 4-cü sosial islahat paketi

### Prezidentin xalqa yeni dəstək layihəsi 1 milyon 900 min vətəndaşı əhatə edəcək



Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanda əhalinin sosial müdafiəsinin etibarlı təmin edilməsi praktik işdə real təsdiqini tapır.

Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı, imzaladığı fərman və sərəncamlar sosial cəhətdən həssas əhali qruplarının etibarlı müdafiə sistemi ilə əhatə olunmasına şərait yaradıb. Ölkə Prezidenti bütün dövrlərdə əhalinin sosial müdafiəsinin təşkilini və daxili siyasətin sosial yönümlülüyünü ön planda saxlayıb. Ən önəmlisi isə ondan ibarətdir ki, dövlətin həyata keçirdiyi sosial siyasətin mərkəzində Azərbaycan vətəndaşının firavan yaşam tərzi dayanır. Xüsusən sosial məsələlərin həlli ilə bağlı ölkədə çoxsaylı dövlət proqramları, böyük layihələr həyata keçirilir. Çox təqdirəlayiq haldır ki, hər il Prezidentin imzaladığı fərman və sərəncamların 65 faizi məhz sosialyönümlü olur. Dövlət başçısının 2023-cü il üçün müəyyənləşdirdiyi sosial dəstək paketi də bunun bariz təcəssümüdür.

İlham Əliyevin yeni fərman və sərəncamları ilə son beş ildə ölkəmizdə artıq dördüncü sosial islahat paketi reallaşdırılır. Bu sosial dəstək paketinə uyğun olaraq əməkhaqqı, müavinət və təqaüdlərin növbəti dəfə artırılması təmin olunur.

→ 4



# Sülh müqaviləsi qaçılmazdır

### İlham Əliyev Ermənistana və onun havadarlarına bir daha hərbi-siyasi diplomatik danışıqların ən doğru yolunu göstərdi

İkinci Qarabağ müharibəsinin başa çatmasından iki ildən artıq vaxt ötsə də, qalib Azərbaycanla məğlub Ermənistan arasında hələ də sülh sazişinin imzalanmaması yeganə narahatedici məqamdır. 44 günlük savaşda Azərbaycan qarşısında diz çöküb yalvaran Ermənistan indi köhnə xislətini nümayiş etdirərək müqavilə bağlamaq üçün hətta bəzi şərtlər irəli sürür. Ancaq qalib ölkə kimi Azərbaycanın qətiyyətli mövqeyi dəyişməzdir. Sülh müqaviləsi yalnız Azərbaycan Prezidentinin irəli sürdüyü 5 prinsipə uyğun hazırlanmalı və imzalanmalıdır.

Yerli televiziya kanallarına verdiyi müsahibədə bir daha tərəflər arasında gedən sülh danışıqlarına toxunan Prezident İlham Əliyev həm Ermənistana, həm də onun havadarlarına hərbi-diplomatik dərs keçdi və bəyan etdi ki, hansısa qüvvə, hansısa güc Azərbaycanla təhdid dilində danışa bilməz. İlham Əliyev eyni zamanda ümidvar olduğunu bildirdi ki, 2023-cü ildə bu məsələlərə tamamilə son qoymaq mümkündür. Azərbaycan üçüncü müharibənin baş verməsini istəmir. Ona görə də Ermənistan rəhbərliyi yaxşı-yaxşı düşünüb qərar verməlidir.

#### Rusiya sülhməramlılarının missiyası başa çatanda...

Bəs Ermənistan nə istəyir?!

İlham Əliyev bunu belə izah edir: "Yəqin ki, hansısa geosiyasi dəyişikliklər, ola bilsin ki, kiminsə ona vəd etdiyi nələrisə gözləyir. Çünki belə təəssürat yaranır ki, ona kimsə nə isə vəd edib. Ona görə ki, regionda vəziyyətin obyektiv təhlili, qüvvələr balansı və iki il bundan əvvəl baş vermiş hadisələrə, eləcə də keçən ilin sentyabr ayında baş vermiş və ya hazırda Laçın-Xankəndi yolunda baş verən hadisələrə dünyanın reaksiyası onu göstərir ki, suda batanların xilas edilməsi onların öz işidir. Biz kömək edə bilərik. Bu azərbaycanofobiya və isteriya bataqlığında tamam boğulmamağa yalnız biz kömək edə bilərik. Nə ilə? Onunla ki, biz deyirik "hə", biz deyirik, gəlin sülh bağlayaq".

Amma yenə də rəsmi İrəvan məkrli oyun oynayır və iddialar səsləndirməklə yenə də öz dediyini qəbul etdirməyə can atır.

→ 5

## Azərbaycan bayrağı Qarabağın bütün ərazilərində dalğalanacaq

Vətənpərvər gənclərin, vətəndaş cəmiyyəti nümayəndələrinin etiraz aksiyası elə ilk gündən öz nəticəsini verdi: birincisi, Ermənistandan Xankəndiyə gələn emissarların qarşısı alındı. Humanitar məqsədlər üçün ermənilərə verilmiş Laçın-Xankəndi yolu ilə Qarabağa silah daşınmasına son qoyuldu. "Qızılbulaq" və "Dəmirli " yataqlarının qanunsuz istismarı dayandırıldı. Qarabağda mədənlərimizi qanunsuz istismar edən "Base Metlas" şirkəti fəaliyyətini dayandırması ilə bağlı məlumat yaydı. İkincisi, Qarabağda, Xankəndidə yaşayan ermənilər aksiyanın keçirildiyi bu günlərdə dərk etdilər ki, torpağın əsl sahibi Azərbaycandır.

→ 6

## *Laçın yolundakı aksiyanın sədası dünyaya yayılır:* xarici jurnalistlər hadisə yerində




→ 6

## Frank-Valter Ştaynmayer İlham Əliyevə zəng edib

Yanvarın 13-də Almaniya Federativ Respublikasının Prezidenti Frank-Valter Ştaynmayer Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Söhbət zamanı prezidentlər Azərbaycan-Almaniya əlaqələrinin mövcud vəziyyətindən məmnunluqlarını ifadə edib və əməkdaşlığın perspektivlərini müzakirə ediblər.

Regional təhlükəsizlik məsələlərinə toxunan Frank-Valter Ştaynmayer Almaniyanın Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin bilavasitə iştirakı ilə aparılan Avropa İttifaqı-Azərbaycan-Ermənistan üçtərəfli formatını dəstəklədiyini vurğulayıb.

Prezident İlham Əliyev Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin dəstəyi ilə həyata keçirilən üçtərəfli danışıqları yüksək qiymətləndirdiyini vurğulayaraq, Azərbaycanın Avropa İttifaqı-Azərbaycan-Ermənistan üçtərəfli formatı çərçivəsində aparılan müzakirələr prosesinə sadiqliyini ifadə edib.

Eyni zamanda telefon danışığı əsnasında Azərbaycanın ərazisində olan Xankəndi-Laçın yolundakı vəziyyət müzakirə edilib. Dövlətimizin başçısı bildirib ki, Ermənistanın yolun, guya, blokada şəraitində olması barədə iddiaları yalandır, yolda Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə və eləcə də digər humanitar yüklərin sərbəst hərəkəti təmin olunur.

Söhbət zamanı prezidentlər bir daha Azərbaycan-Almaniya əməkdaşlığının perspektivlərini yüksək qiymətləndirərək, bu əlaqələrin inkişafı üçün birgə səylərin göstərilməsinin vacibliyini qeyd ediblər.

***Prezidentin Mətbuat Xidməti***

# Bu il laçınlıların da yurd həsrətinə son qoyulacaq

### Prezident İlham Əliyev bəyan etdi ki, 2023-cü ilin prioriteti Böyük qayıdışın sürətləndirilməsi olacaq

Vətən müharibəsi başa çatandan dərhal sonra Azərbaycan dövləti Böyük qayıdışın tezliklə gerçəkləşdirilməsi üçün əzm və səylə çalışır. Buna görə də işğaldan azad edilmiş ərazilərdə öncə irimiqyaslı infrastruktur layihələri icra olunur. Qarabağın "hava qapısı" Füzuli Beynəlxalq Hava Limanı cəmi səkkiz ay ərzində tikilib istifadəyə verildi. Ötən il oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi keçirildi. 2025-ci ildə isə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi nəzərdə tutulur.

Təsdiq olunmuş investisiya planına əsasən, hazırda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazilərində ümumi uzunluğu iki min kilometrdən çox avtomobil yolu, 50 kilometrdən çox olan tunellər salınır. Həmçinin bu ərazilərdə 100-dən çox körpü tikiləcək.



→ 5

## Ermənistan iqtisadiyyatı iflic vəziyyətindədir

Ermənistanı "xoşbəxt ölkə" kimi qələmə verməyə səy göstərən baş nazir Nikol Paşinyanın cəhdlərinə baxmayaraq, bu ölkədə yaranan acınacaqlı vəziyyət əsl reallıqları əks etdirir və yalanları bir daha üzə çıxarır. Xüsusilə postmüharibə dövründə yaranan mövcud sosial-iqtisadi durum bu ölkədə əhalinin yaşayış səviyyəsinin daha böyük sürətlə pisləşməkdə olduğunu göstərir.

"4rd.am" nəşri yazır ki, istənilən ölkədə sənayenin bərpası ilk növbədə qoyulan investisiya və ayrılan kreditlər hesabına təşəkkül tapır: "İndi isə gəlin baxaq - müharibədən sonra Ermənistana investisiya qoyan hər hansı bir investorla rastlaşan olubmu? Əksinə, müharibəyə qədər ölkədə mövcud olan azsaylı investorlar Paşinyan hakimiyyətinə inamsızlıq üzündən Ermənistanı tərk ediblər. Deməli, Ermənistanın "yüksəlişdə" olan sənaye istehsalı investorlar tərəfindən aşağı səviyyədə qiymətləndirilib".

Belə bir vəziyyətdə ümid ancaq bank kreditlərinə qalır ki, burada da bank rəhbərləri inamsızlıq ucbatından "Ermənistan iqtisadiyyatı"nın real sektoruna daxil olmaqdan çəkinirlər. Təsadüfi deyil ki, Ermənistanda son iki ildə ölkə sənayesinə kredit qoyuluşları 35 milyon dollar azalıb.

→ 8

## 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 330 (üç yüz otuz) manat müəyyən edilsin.

2. "1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və "Leninqradın müdafiəsinə görə" medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 2 iyul tarixli 2320 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 7, maddə 708; 2013, № 12, maddə 1601; 2014, № 4, maddə 437; 2016, № 1, maddə 133; 2018, № 4, maddə 747; 2019, № 4, maddə 708; 2020, № 8, maddə 1064, № 12 (V kitab), maddə 1579) 1-ci hissəsində "300 (üç yüz)" sözləri "330 (üç yüz otuz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

## Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 244 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 (altı yüz) manat müəyyən edilsin.

2. "Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 avqust tarixli 244 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 8, maddə 962; 2018, № 4, maddə 670; 2019, № 2, maddə 235; 2020, № 12 ( I kitab), maddə 1489) 1-ci hissəsində "500 (beş yüz)" sözləri "600 (altı yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

## Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 493 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 (altı yüz) manat müəyyən edilsin.

2. "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 dekabr tarixli 493 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 12, maddə 1040; 2010, № 9, maddə 771; 2011, № 12, maddə 1139; 2013, № 8, maddə 896; 2016, № 1, maddə 64; 2018, № 5, maddə 936; 2019, № 1, maddə 91; 2020, № 12 (I kitab), maddə 1487) 1-ci hissəsində "500 (beş yüz)" sözləri "600 (altı yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

## Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən aşağıdakı kimi müəyyən edilsin:

1.1. orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 500 (beş yüz) manat;

1.2. orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 400 (dörd yüz) manat;

1.3. orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə - 330 (üç yüz otuz) manat.

2. "Müharibə və ya 1990-cı ilin 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 9 sentyabr tarixli 823 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 795; 2011, № 12, maddə 1140; 2013, № 8, maddə 895; 2014, № 3, maddə 250; 2016, № 1, maddə 68; 2018, № 5, maddə 937; 2019, № 4, maddə 639; 2020, № 12 (I kitab), maddə 1492; 2021, № 8, maddə 922) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənddə "400" rəqəmləri "500 (beş yüz)" sözləri ilə əvəz edilsin;

2.2. 1.2-ci bənddə "350" rəqəmləri "400" (dörd yüz) sözləri ilə əvəz edilsin;

2.3. 1.3-cü bənddə "300" rəqəmləri "330" (üç yüz otuz) sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

## Beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin artırılması və "Beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 72 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Beşdən çox uşağı olan qadınlara sosial müavinətin aylıq məbləği 2023-cü il yanvarın 1-dən hər uşaq üçün 105 (yüz beş) manat müəyyən edilsin.

2. "Beşdən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli 72 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 12, maddə 1539; 2018, № 4, maddə 668; 2019, № 4, maddə 638; 2021, № 12, maddə 1360) 1-ci hissəsinə "müavinətin" sözündən sonra "aylıq" sözü əlavə edilsin və həmin hissədə "70 (yetmiş)" sözləri "105 (yüz beş)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

## 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar tarixli 350 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. 20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 (altı yüz) manat müəyyən edilsin.

2. "20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 19 yanvar tarixli 350 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 1, maddə 5; 2020, № 12 (I kitab), maddə 1493) 1-ci hissəsində "500 (beş yüz)" sözləri "600 (altı yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

## Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqlarının artırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, əhalinin rifah halını yaxşılaşdırmaq və sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aşağıdakı təşkilatlarda çalışan rəhbər və digər işçilərin aylıq vəzifə maaşları 2023-cü il yanvarın 1-dən orta hesabla 15 faiz artırılsın:

1.1. Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti və Aparatı, Gəncə bölməsinin Aparatı;

1.2. Heydər Əliyev Mərkəzi;

1.3. "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi;

1.4. Azərbaycanda Atatürk Mərkəzi;

1.5. Azərbaycan Respublikasının dövlət arxivləri və onların filialları, rayon (şəhər) dövlət arxivləri;

1.6. Azərbaycan Respublikasının Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən İşçi qrupu;

1.7. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi;

1.8. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin Aparatı;

1.9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Maliyyə Elm-Tədris Mərkəzi;

1.10. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi;

1.11. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Dövlət Film Fondu;

1.12. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin tabeliyində Quba şəhərində "Soyqırımı memorial kompleksi";

1.13. Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin Milli Aerokosmik Agentliyinin Aparatı;

1.14. Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi;

1.15. Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin Milli Kulinariya Mərkəzi;

1.16. Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fondu;

1.17. icra hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıq.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan qurumlarda çalışan rəhbər və digər işçilərin vəzifə maaşlarının yeni məbləğlərini təsdiq etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

## Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1229 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. 2023-cü il yanvarın 1-dən əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği elmlər doktoru elmi dərəcəsinə görə 500 (beş yüz) manat, fəlsəfə doktoru elmi dərəcəsinə görə 300 (üç yüz) manat müəyyən edilsin.

2. "Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1229 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12, maddə 1491; 2021, № 12, maddə 1359) 1-ci hissəsində "300" rəqəmləri "500 (beş yüz)" sözləri ilə, "200" rəqəmləri "300 (üç yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

## Sosial müavinətlərin məbləğinin artırılması və "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. 2023-cü il yanvarın 1-dən sosial müavinətlərin məbləğləri aşağıdakı kimi müəyyən edilsin:

1.1. yaşa görə sosial müavinətin məbləği 220 (iki yüz iyirmi) manat;

1.2. orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə sosial müavinətin məbləği 270 (iki yüz yetmiş) manat, orqanizmin funksiyalarının 61-80 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə sosial müavinətin məbləği 220 (iki yüz iyirmi) manat, orqanizmin funksiyalarının 31-60 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə sosial müavinətin məbləği 150 (yüz əlli) manat;

1.3. ailə başçısını itirməyə görə sosial müavinətin məbləği 120 (yüz iyirmi) manat;

1.4. bir yaşınadək uşağı olan aztəminatlı ailələrə sosial müavinətin məbləği hər uşaq üçün 100 (bir yüz) manat;

1.5. radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün sosial müavinətin məbləği 300 (üç yüz) manat;

1.6. uşağın anadan olmasına görə sosial müavinətin məbləği 500 (beş yüz) manat;

1.7. dəfn üçün sosial müavinətin məbləği 500 (beş yüz) manat.

2. "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 29 avqust tarixli 973 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 8, maddə 916; 2014, № 3, maddə 251; 2016, № 1, maddə 69; 2018, № 7 (I kitab), maddə 1454; 2019, № 4, maddə 640; 2020, № 11, maddə 1361; 2021, № 8, maddə 922, № 12, maddə 1361; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 dekabr tarixli 1938 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bənd üzrə:

2.1.1. 1.1.1-ci yarımbənddə "180" rəqəmləri "220 (iki yüz iyirmi)" sözləri ilə əvəz edilsin;

2.1.2. 1.1.2-ci yarımbəndin ikinci abzasında "220" rəqəmləri "270 (iki yüz yetmiş)" sözləri ilə, üçüncü abzasında "180" rəqəmləri "220 (iki yüz iyirmi)" sözləri ilə, dördüncü abzasında "120" rəqəmləri "150 (yüz əlli)" sözləri ilə əvəz edilsin;

2.1.3. 1.1.3-cü yarımbəndin ikinci abzasında "220" rəqəmləri "270 (iki yüz yetmiş)" sözləri ilə, üçüncü abzasında "180" rəqəmləri "220 (iki yüz iyirmi)" sözləri ilə, dördüncü abzasında "120" rəqəmləri "150 (yüz əlli)" sözləri ilə əvəz edilsin;

2.1.4. 1.1.4-cü yarımbəndin ikinci abzasında "220" rəqəmləri "270 (iki yüz yetmiş)" sözləri ilə, üçüncü abzasında "180" rəqəmləri "220 (iki yüz iyirmi)" sözləri ilə, dördüncü abzasında "120" rəqəmləri "150 (yüz əlli)" sözləri ilə əvəz edilsin;

2.1.5. 1.1.6-cı yarımbənddə "100" rəqəmləri "120 (yüz iyirmi)" sözləri ilə əvəz edilsin;

2.1.6. 1.1.10-cu yarımbənddə "70" rəqəmləri "100 (bir yüz)" sözləri ilə əvəz edilsin;

2.2. 1.2-ci bənd üzrə:

2.2.1. 1.2.1-ci yarımbənddə "237" rəqəmləri "300 (üç yüz)" sözləri ilə əvəz edilsin;

2.2.2. 1.2.2-ci yarımbənddə "300" rəqəmləri "500 (beş yüz)" sözləri ilə əvəz edilsin;

2.2.3. 1.2.3-cü yarımbənddə "350" rəqəmləri "500 (beş yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

## Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 128 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 200 (iki yüz) manat müəyyən edilsin.

2. "Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 17 mart tarixli 128 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 3, maddə 249; 2016, № 1, maddə 70; 2018, № 4, maddə 669; 2019, № 4, maddə 642; 2020, № 8, maddə 1039, № 12 (I kitab), maddə 1490; 2021, № 8, maddə 919) 1-ci hissəsində "130" rəqəmləri "200 (iki yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

---

## Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1232 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə verilən Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 300 (üç yüz) manat müəyyən edilsin.

2. "Ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1232 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 12 (I kitab), maddə 1494; 2021, № 8, maddə 923) 1-ci hissəsində "210" rəqəmləri "300 (üç yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

---

## Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün məbləğinin artırılması və "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 643 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 100 (bir yüz) manat müəyyən edilsin.

2. "Orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən edilmiş şəxslərə qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 643 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 643; 2021, № 8, maddə 923, № 12, maddə 1358) 1-ci hissəsində "80" rəqəmləri "100 (bir yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

---

## Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğinin artırılması və "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Dövlət büdcəsinin vəsaiti hesabına doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə verilən təqaüdlərin məbləğləri 2023-cü il yanvarın 1-dən aşağıdakı kimi müəyyən edilsin:

1.1. Doktorantura pilləsi üzrə:

1.1.1. elmlər doktoru hazırlığı üzrə doktorantlara - 400 (dörd yüz) manat;

1.1.2. fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara - 240 (iki yüz qırx) manat.

1.2. Ali təhsil müəssisələrində və Azərbaycan Milli Elmlər Akademiyasında:

1.2.1. magistratura səviyyəsi üzrə:

1. akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 195 (yüz doxsan beş) manat;

2. akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 160 (yüz altmış) manat;

3. akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 110 (yüz on) manat;

1.2.2. bakalavriat səviyyəsi üzrə:

1. akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 175 (yüz yetmiş beş) manat;

2. akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 145 (yüz qırx beş) manat;

3. akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 100 (bir yüz) manat.

1.3. Orta ixtisas təhsili müəssisələrində:

1.3.1. akademik göstəriciləri 91-100 bal olan tələbələrə - 100 (bir yüz) manat;

1.3.2. akademik göstəriciləri 71-100 bal olan tələbələrə - 80 (səksən) manat;

1.3.3. akademik göstəriciləri 51-100 bal olan tələbələrə - 66 (altmış altı) manat.

1.4. Peşə təhsili müəssisələrində:

1.4.1. akademik göstəriciləri "5" (yüksək texniki peşə təhsili səviyyəsində 91-100 bal) olan tələbələrə - 100 (bir yüz) manat;

1.4.2. akademik göstəriciləri "4" və "5" (yüksək texniki peşə təhsili səviyyəsində 71-100 bal) olan tələbələrə - 80 (səksən) manat;

1.4.3. akademik göstəriciləri "3"-"5" (yüksək texniki peşə təhsili səviyyəsində 51-100 bal) olan tələbələrə - 66 (altmış altı) manat.

2. "Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 fevral tarixli 961 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 291; 2021, № 11, maddə 1232, № 12, maddə 1470) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1.1-ci bəndin ikinci abzasında "360" rəqəmləri "400 (dörd yüz)" sözləri ilə, üçüncü abzasında "216" rəqəmləri "240 (iki yüz qırx)" sözləri ilə əvəz edilsin;

2.2. 1.2-ci bəndin dördüncü abzasında "174" rəqəmləri "195 (yüz doxsan beş)" sözləri ilə, beşinci abzasında "144" rəqəmləri "160 (yüz altmış)" sözləri ilə, altıncı abzasında "96" rəqəmləri "110 (yüz on)" sözləri ilə, səkkizinci abzasında "156" rəqəmləri "175 (yüz yetmiş beş)" sözləri ilə, doqquzuncu abzasında "132" rəqəmləri "145 (yüz qırx beş)" sözləri ilə, onuncu abzasında "90" rəqəmləri "100 (bir yüz)" sözləri ilə əvəz edilsin;

2.3. 1.3-cü bəndin ikinci abzasında "90" rəqəmləri "100 (bir yüz)" sözləri ilə, üçüncü abzasında "72" rəqəmləri "80 (səksən)" sözləri ilə, dördüncü abzasında "60" rəqəmləri "66 (altmış altı)" sözləri ilə əvəz edilsin;

2.4. 1.4-cü bəndin ikinci abzasında "90" rəqəmləri "100 (bir yüz)" sözləri ilə, üçüncü abzasında "72" rəqəmləri "80 (səksən)" sözləri ilə, dördüncü abzasında "60" rəqəmləri "66 (altmış altı)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

---

## Fəxri adlara görə aylıq təqaüdün məbləğinin artırılması və "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Fəxri adlara görə aylıq təqaüdün məbləği 2023-cü il yanvarın 1-dən xalq yazıçısı, xalq şairi, xalq artisti və xalq rəssamı üçün 200 (iki yüz) manat, əməkdar elm xadimi, əməkdar incəsənət xadimi, əməkdar artist, əməkdar rəssam, əməkdar mədəniyyət işçisi, əməkdar müəllim, əməkdar həkim, əməkdar memar, əməkdar bədən tərbiyəsi və idman xadimi, əməkdar dövlət qulluqçusu, əməkdar jurnalist, əməkdar mühəndis, əməkdar hüquqşünas, əməkdar kənd təsərrüfatı işçisi, əməkdar pilot, əməkdar tibb işçisi üçün 150 (yüz əlli) manat müəyyən edilsin.

2. "Fəxri adlara görə aylıq təqaüdün verilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 4 iyul tarixli 878 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 7, maddə 609, № 11, maddə 1013; 2007, № 4, maddə 361; 2013, № 8, maddə 975, № 11, maddə 1454; 2018, № 2, maddə 311; 2020, № 5, maddə 570; 2021, № 12, maddə 1469) 1-ci hissəsinin birinci abzasında "180" rəqəmləri "200 (iki yüz)" sözləri ilə, "120" rəqəmləri "150 (yüz əlli)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

---

## Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləğinin artırılması və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləği 2023-cü il yanvarın 1-dən 1500 (min beş yüz) manat müəyyən edilsin.

2. "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 6, maddə 329, № 10, maddə 587; 2004, № 12, maddə 1006; 2005, № 3, maddə 167; 2006, № 11, maddə 939; 2007, № 12, maddə 1235; 2008, № 7, maddə 621; 2016, № 10, maddə 1628; 2018, № 2, maddə 210) 2-ci hissəsində "1450 (min dörd yüz əlli)" sözləri "1500 (min beş yüz)" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 yanvar 2023-cü il*

---

## Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləğinin artırılması və "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği 2023-cü il yanvarın 1-dən 275 (iki yüz yetmiş beş) manat müəyyən edilsin.

2. "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 9, maddə 579; 2004, № 9, maddə 684; 2006, № 12, maddə 1056; 2008, № 9, maddə 796; 2013, № 9, maddə 1049; 2018, № 5, maddə 935; 2019, № 2, maddə 227; 2022, № 2, maddə 109) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 1-ci hissədə "250 (iki yüz əlli)" sözləri "275 (iki yüz yetmiş beş)" sözləri ilə əvəz edilsin;

2.2. 2-ci hissəyə "Təhsil" sözündən əvvəl "Elm və" sözləri əlavə edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri,13 yanvar 2023-cü il*

---

# Prezident İlham Əliyevin yerli telekanallara müsahibəsi xarici KİV-in diqqət mərkəzindədir

Azərbaycan Prezidenti İlham Əliyevin yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi dünyanın aparıcı kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, qardaş Türkiyə mediası, o cümlədən Anadolu və İHA xəbər agentliklər, "TRT Haber", "TRT Avaz" və digər telekanallar, "Yeni Akit", "Milliyet" və sair qəzetlər dövlətimizin başçısının müsahibəsindəki mühüm məqamları, o cümlədən Azərbaycanın inkişaf istiqamətləri, regional proseslər, perspektivdə olan yeni layihələr, dünyadakı ikili standartlar, Ermənistanla münasibətlər və sair mövzulara dair fikirlərini müxtəlif sərlövhələrlə təqdim edib.

Materiallarda bildirilib ki, Prezident İlham Əliyevin Azərbaycanın milli müdafiə sənayesini müasir dövrün standartlarına yüksəltməkdə qərarı qətidir. Eyni zamanda qeyd olunub ki, Azərbaycan Prezidenti Ermənistana və onun havadarlarına da mühüm mesajlar ötürdü.

Avstriyanın aparıcı nəşrlərindən olan "Zalsburq xəbərləri" (Salzburger Nachrichten) qəzetində isə sözügedən müsahibəyə həsr edilmiş "Azərbaycan 2023-cü ildə Avropaya qaz tədarükünü artıracaq" sərlövhəli məqalə dərc olunub. Məqalədə Prezident İlham Əliyevin Azərbaycanın bu il Avropa İttifaqına 12 milyard kubmetr qaz tədarükünə dair hələ aylar əvvəl əldə edilmiş razılığı bir daha vurğuladığı diqqətə çatdırılıb. Vurğulanıb ki, 2023-cü ildə Azərbaycan ümumilikdə 24 milyard kubmetr qaz ixrac edəcək və onun yarısını Avropaya göndərəcək. Xatırladılıb ki, indiyədək bu göstərici illik 8,1 milyard kubmetr idi.

Yazıda, həmçinin Avropaya qaz nəqlinə dair siyasi razılaşmalara da toxunulub. Qeyd edilib ki, ötən ilin iyulunda Azərbaycan Prezidenti İlham Əliyev və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen tərəfindən qaz nəqlinə dair Anlaşma Memorandumu imzalanıb.




2027-ci ildən etibarən qaz nəqlinin həcmi daha da artaraq illik azı 20 milyard kubmetrə çatmalıdır.

Prezident İlham Əliyevin yerli telekanallara müsahibəsi Rumıniyanın nüfuzlu KİV-inin də diqqət mərkəzində olub. "News24hours" və digər xəbər portallarında rumın və ingilis dillərində dərc olunan məqalələrdə dövlətimizin başçısının Ermənistanla bağlı fikirlərinə xüsusi yer verilib. Yazılarda Prezident İlham Əliyevin ekofəalların və QHT nümayəndələrinin Laçın-Xankəndi yolunda keçirdikləri etiraz aksiyası, Azərbaycan Silahlı Qüvvələrinin müdafiə qabiliyyətinin artırılması, sərhədlərin delimitasiyasının vacibliyi, Zəngəzur dəhlizinin əhəmiyyəti və digər məsələlər barədə fikirləri əksini tapıb.

Rusiyanın TASS, "İnterfaks", "Vestnik Kavkaza" agentlikləri, "Kommersant", "Nwes.ru" və geniş oxucu kütləsi olan digər nəşrləri isə Azərbaycan Liderinin daha çox Ermənistan-Azərbaycan münasibətləri, Zəngəzur, "Şimal-Cənub" dəhlizlərinin iqtisadi əhəmiyyəti ilə bağlı fikirlərinə üstünlük veriblər.

Moldova KİV-i Azərbaycan Prezidentinin müsahibəsinə dair məqalələri AZƏRTAC-a istinadla yayıblar. "Point", "Noi", "Dosarmedia", "Timpul" və digər xəbər portallarında rumın və rus dillərində dərc olunan yazılarda dövlətimizin başçısının Ermənistanla bağlı dedikləri xüsusi diqqətdə saxlanılıb.

Yazılarda azərbaycanlı gənclərin Laçın-Xankəndi yolunda keçirdikləri aksiya, Silahlı Qüvvələrimizin müdafiə qabiliyyətinin artırılması, sərhədlərin delimitasiyasının vacibliyi, Zəngəzur dəhlizinin əhəmiyyəti və digər məsələlərə də toxunulub.

Gürcüstanın "dalgatv.ge", "24news.ge", "newsday.ge", "aktual.ge" saytları, Yaponiyanın "ajmedia.jp" portalı da Prezident İlham Əliyevin yerli telekanallara müsahibəsindən fikirlər yayıblar.

"ajmedia.jp" portalında yapon və ingilis dillərində yayımlanan məlumatlarda Azərbaycan Prezidentinin ötən il ölkəmizin sosial-iqtisadi sahədə əldə etdiyi uğurlar, o cümlədən Avropanın enerji təminatında artan rolu, bu istiqamətdə imzalanmış yeni sənədlərin əhəmiyyəti, həmçinin regionda baş verən proseslər, Azərbaycanın nüfuzunun artmasına mühüm təsir göstərəcək yeni layihələr barədə fikirləri əksini tapıb. Yazılarda Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində aparılan danışıqlar və regionun iqtisadi inkişafına təsir göstərəcək Zəngəzur dəhlizi barədə dövlətimizin başçısının fikirlərinə də geniş yer verilib. Bununla yanaşı, azərbaycanlı ekofəalların Laçın-Xankəndi yolunda davam edən etiraz aksiyasının əsas mahiyyəti barədə obyektiv informasiya yapon ictimaiyyətinə təqdim edilib.

Portalda yayımlanan məlumatlarda Prezident İlham Əliyevin Azərbaycan Ordusunun qüdrətini daha da artırması, ölkəmizin müdafiə sənayesini inkişaf etdirməsi barədə fikirlərinə də geniş yer verilib. Qeyd edilib ki, Ermənistana verilən heç bir müasir silah Azərbaycan Ordusunun qüdrəti qarşısında davam gətirə bilməz.

Məlumatlarda, eyni zamanda dövlətimizin başçısının qərbi azərbaycanlıların hüquqları mövzusunun haqlı olaraq beynəlxalq arenaya çıxarılması barədə fikirləri də oxucuların diqqətinə çatdırılıb.

# İlham Əliyevin 4-cü sosial islahat paketi

## Prezidentin xalqa yeni dəstək layihəsi 1 milyon 900 min vətəndaşı əhatə edəcək

*-Əvvəli 1-ci səh.*

Dövlət başçısının 5 və 13 yanvar tarixli fərman və sərəncamlarına əsasən vətəndaşların müavinət və təqaüdlərində növbəti artımların edilməsi il bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində brifinq keçirilib və bütün sahələrə edilən artımlar barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, dövlət başçısının bu istiqamətdə imzaladığı fərman və sərəncamlar ümumilikdə 1 milyon 900 min vətəndaşı əhatə edəcək.

Beləliklə, Prezidentin imzaladığı fərman və sərəncamlara əsasən:

* Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün məbləği 1500 manata;

* Minimum aylıq əməkhaqqının məbləği 345 manata;

* Əmək pensiyasının minimum məbləği 280 manata;

* Şəhid ailəsi üçün Prezident təqaüdü 600 manata;

* 20 Yanvar şəhidinin ailəsi üçün Prezident təqaüdü 600 manata;

* 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçıları və bu kateqoriyaya aid digər şəxslərə verilən Prezident təqaüdünün aylıq məbləği 330 manata;

* Əfqanıstan müharibəsi iştirakçıları, itkin düşmüş və həlak omuş hərbi qulluqçuların ailələrinə verilən təqaüd 600 manata;

* Müharibə və ya 20 Yanvar hadisələri ilə əlaqədar əlilliyi olan şəxslərə verilən təqaüd orqanizmin funksiyalarının (81-100, 61-80, 31-60 ) faiz pozulmasına görə 500, 400 və 330 manata;

* Çernobıl AES-də hərbi xidmətlə əlaqədar - I qrup əlillər üçün 500, II qrup 400 və III qrup 330 manata;

* Yaşa görə sosial müavinətin məbləği 220 manata;

* Orqanizmin funksiyalarının (81-100, 61-80, 31-60 ) faiz pozulmasına görə əlilliyi müəyyən edilmiş şəxslərə sosial müavinətin məbləği 270, 220 və 150 manata;

* "Xalq" fəxri adına görə təqaüdün məbləği 200, "Əməkdar" fəxri adına görə təqaüdün məbləği 150 manata;

* Əlilliyi müəyyən edilmiş şəxslərə (gözdən əlilliyi olan şəxslər istisna olmaqla) verilən təqaüd 200 manata;

* Beşdən çox uşağı olan qadınlara sosial müavinətin aylıq məbləği 105 manata;

* Ailə başçısını itirməyə görə sosial müavinətin məbləği 120 manata;

* Bir yaşınadək uşağı olan aztəminatlı ailələrə sosial müavinətin məbləği hər uşaq üçün 100 manata;

* Radiasiya qəzası nəticəsində zərər çəkmiş şəxslərə hər il müalicə üçün sosial müavinətin məbləği 300 manata;

* Uşağın anadan olmasına görə birdəfəlik sosial müavinətin məbləği 500 manata;

* Dəfn üçün sosial müavinətin məbləği 500 manata.

* Ali məktəb tələbələri üçün Prezident təqaüdünün məbləği 275 manata;

* Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin AMEA-nın magistratura səviyyəsində təhsil alan tələbələrin təqaüdləri pillə və səviyyə dərəcəsinə uyğun;

* Dövlət büdcəsindən maliyyələşən bir sıra təşkilatlarda çalışan işçilərin əməkhaqları isə ümumilikdə 15 faiz artıb.

Qeyd olunub ki, son 5 ildə icra olunan 4 sosial islahat paketi nəticəsində şəhid ailəsi üçün Prezidentin aylıq təqaüdü 2,5 dəfə, əlilliyi olan şəxslər üçün müavinət və təqaüdlər orta hesabla 3 dəfə, aztəminatlı ailələrdə bir yaşınadək uşağa görə müavinət 2,1 dəfə, uşağın anadan olmasına görə birdəfəlik müavinət 4,6 dəfə, dəfn üçün birdəfəlik müavinət 3,4 dəfə, ümumi səbəblərdən orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə əlilliyi (o cümlədən gözdən əlilliyi) olan şəxslərə Prezidentin aylıq təqaüdü 2 dəfə, yaşa görə müavinət 3 dəfə, beşdən çox uşağı olan qadınlara hər uşağa görə müavinət 3,2 dəfə, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə və ya 18 yaşınadək əlilliyi müəyyən olunmuş şəxslərə qulluq edən şəxslərə Prezidentin aylıq təqaüdü 2 dəfə, ailə başçısını itirməyə görə müavinət 76,5 faiz artırılıb.

Yeni fərman və sərəncamlarla ümumilikdə 660 min nəfərə yönələn sosial müavinət və təqaüdlərin artırılması təmin edilir.

Bütün bunlar bir daha Azərbaycanın həm də sosial dövlət olduğunu, Prezident İlham Əliyevin isə siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayandığı bir daha öz təsdiqini tapır. Prezidentin təşəbbüskarı olduğu və onun imzası ilə həyata keçirilən müxtəlif sosial paketlərə nəzər salsaq görərik ki, onların hər biri əhalinin ən həssas təbəqəsindən olan insanları əhatə edir.

Beləliklə, artımlar artıq 2023-cü ildə bu istiqamətdə daha çox vəsaitin ayrılmasına imkan verəcək. Onu da vurğulayaq ki, bütövlükdə 2023-cü ilin dövlət büdcəsindən sosial sahəyə 15,2 milyard manat vəsait ayrılacaq. Bu, büdcə xərclərinin 46 faizi deməkdir və təbii ki, müstəqillik dövründə ən böyük sosial ayırmalardır.

Sonda onu da qeyd edək ki, ümumilikdə 2023-cü ildə yeni sosial islahat paketi üzrə 1,9 milyon vətəndaşı əhatə edən sosial ödənişlərdə növbəti artımlar edilib və bunun üçün illik əlavə 750 milyon manat vəsait nəzərdə tutulub.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Dövrün tələblərinə cavab verən mükəmməl sənəd

## "Siyasi partiyalar haqqında" yeni qanun siyasi münasibətlərin sağlam inkişafına mühüm töhfə verəcək

Prezident İlham Əliyev bir neçə gün əvvəl "Siyasi partiyalar haqqında" qanunu təsdiq edib. Yeni qanun ölkəmizdə həyata keçirilən siyasi islahatların mühüm tərkib hissəsidir.







Qanunun qəbul edilməsində məqsəd demokratiyanın başlıca göstəricisi olan çoxpartiyalılıq institutunu təkmilləşdirmək və milli birliyi möhkəmləndirməkdir. Mövzu ilə bağlı siyasi partiya rəhbərlərinin fikirlərini öyrəndik.

### Siyasi mühitdə müsbət dönüş yaranacaq

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə qeyd edib ki, yeni qanunun qəbul edilməsi ilə bağlı məsələ uzun müddətdir ki gündəmdə idi:

"Xüsusilə də ötən ilin sentyabrından başlayaraq məsələ daha da aktuallaşmış, parlament sədri tərəfindən partiyalara müraciət olunmuşdu. Biz də parlamentdəki dinləmələrdə iştirak edərək təklif və iradlarımızı bildirmişdik. İctimai dinləmələrdə səsləndirilən təkliflərin bir çoxu qanunda nəzərə alınıb. Bu, demokratik yanaşmadan xəbər verir".

Partiya sədri qeyd edib ki, qanun təsdiq edildiyinə görə partiyaları qarşıda daha məsuliyyətli günlər gözləyir: "Siyasi partiyalar fəaliyyətlərini mövcud qanuna uyğunlaşdırmaq üçün müvafiq addımlar atmalıdırlar. Biz partiya olaraq növbəti həftə məsələni siyasi şurada və rayon təşkilatlarının sədrləri ilə bir daha müzakirə edib, mərkəzi şuranın iclasını çağırmağı hədəfləmişik. Yenidən qeydiyyatdan keçmək üçün lazım olan sənədlərin toplanması, eləcə də partiya üzvlərinin qeydiyyata alınması prosedurunu həyata keçirməliyik. Hesab edirəm ki, "Siyasi partiyalar haqqında" qanun ölkəmizin siyasi mühitində müsbət dönüş yaradacaq".

### Partiya yetkililəri xalqın adından yox, yalnız seçicilərinin adından danışa bilərlər

Cümhuriyyət Xalq Partiyasının sədri Bədrəddin Quliyev bildirib ki, "Siyasi partiyalar haqqında" qanunun qüvvəyə minməsi ilə Azərbaycanın siyasi mühitində yeni proseslər başlayır: "Ölkə reallığında yeni siyasi müstəvi ortaya çıxır. Qanuna əsasən, azı 50 nəfərdən ibarət təsisçi toplaşaraq partiyanı təsis etməli, səlahiyyətli nümayəndə vasitəsilə sənədləri qeydiyyat idarəsinə təqdim etməlidirlər. Daha sonrakı mərhələdə isə imzalar toplanmalı, qurultay keçirilməlidir. Yəni yeni qanuna uyğunlaşdırma aparılmalıdır. Xüsusi vurğulamaq lazımdır ki, "Siyasi partiyalar haqqında" qanuna əsasən, partiya yetkililəri xalqın adından yox, yalnız seçicilərinin adından danışa bilərlər. Ümumiyyətlə, yeni qanunun tələblərinə cavab verməli, siyasi mühitin sağlamlaşdırılması üçün çalışmalıyıq".

Partiya sədrinin sözlərinə görə, yeni qanun Azərbaycanın siyasi mühitində bir çox partiyanın fəaliyyətinin təkmilləşməsinə, eləcə də bəzi partiyaların, ümumiyyətlə, fəaliyyətini dayandırmasına səbəb olacaq: "Ölkənin siyasi sferasında yeni proseslər başlanır, yeni gündəm yaranır. Partiyalar daha məsuliyyətlə və yüksək həvəslə fəaliyyət göstərməlidirlər. Əks halda onların fəaliyyətində müşahidə edilən boşluqlar partiyanın sonunu gətirə bilər. Bir sözlə, yeni qanun ölkənin siyasi mühitində iştirak etmək gücündə olan qüvvələr üçün yeni müstəvi açır. İndi yeni düşüncə, yeni fikir və yeni siyasi baxışlar üçün meydan var. Kim meydandan kənarda qalacaqsa, deməli, onların Azərbaycanın siyasi mühitində yeri yoxdur".

B.Quliyev həmçinin qeyd edib ki, cəmiyyətimiz də yeni hüquqi siyasi sistemə hazır olmalıdır: "Bu prosesdə Azərbaycanın milli maraqlarına xidmət etmək hər bir partiyanın borcudur. Bu yeni siyasi mərhələ cəmiyyətimizdə də bir sıra dəyişikliklərə səbəb olacaq".

### Yeni qanun siyasi partiyaların fəaliyyətində əhəmiyyətli rol oynayacaq

Azərbaycan Sosial Rifah Partiyasının sədri Əsli Kazımova bildirib ki, yeni qanun siyasi partiyaların fəaliyyətini təkmilləşdirəcək: "Siyasi partiyalar haqqında" qanun bütövlükdə siyasi sistemin inkişafına müsbət təsir göstərəcək. Nəzərə alaq ki, artıq qüvvədən düşmüş "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunu 30 il əvvəl - 1992-ci il iyunun 3-də qəbul edilmişdi. Ona görə də ölkədə formalaşan yeni siyasi konfiqurasiya qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsini zərurətə çevirmişdir. Bu baxımdan da Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması üçün Milli Məclisin Sədrinə müraciət etmiş və beləliklə, proses uğurla nəticələnmişdir".

Partiya sədri qeyd edib ki, yeni qəbul edilmiş qanun 6 fəsil və 30 maddədən ibarətdir. "Qanun layihəsinin hazırlanması zamanı bir sıra beynəlxalq sənədlərə və nümunələrə müraciət və istinad olunub. Layihənin hazırlanmasında 24 ölkənin təcrübəsinə baxılıb. Eyni zamanda siyasi partiyaların iştirakı ilə keçirilən dinləmələrdə və müzakirələrdə təkliflər öyrənilib. 47 siyasi partiyadan Milli Məclisə yazılı formada 250-dən çox təklif təqdim edilmişdir. Milli Məclisdə komitə və plenar iclaslarda deputatlar tərəfindən irəli sürülmüş 100-dən çox təklif nəzərə alınmışdır".

Ə.Kazımova deyib: "Venesiya Komissiyasının sırf siyasi partiyanın statusuna və fəaliyyətinə aid olan 132 tövsiyəsindən 112-si qanunda nəzərə alınıb. Ümumiyyətlə, yeni qanun bir sıra mütərəqqi müddəaları ilə də seçilir. Hər kəs bərabər şəkildə siyasi partiya yaratmaq və ya mövcud siyasi partiyaya daxil olmaq hüququna malikdir. Dövlət qeydiyyatından keçmiş bütün siyasi partiyaların sərbəst fəaliyyətinə təminat verilir. Eyni zamanda dövlət büdcəsinin vəsaiti hesabına siyasi partiyalara maliyyə yardımı göstərilir. Yeni qanuna əsasən, Azərbaycan Respublikasının tam fəaliyyət qabiliyyətli olan azı 50 vətəndaşı təsis yığıncağını keçirərək partiyanın nizamnaməsini və proqramını qəbul edə, təmsilçilik məqsədilə təsisçilər sırasından səlahiyyətli şəxsi müəyyənləşdirə bilər. Dövlət büdcəsindən siyasi partiyalar üçün ayrılan vəsaitin 95 faizi Milli Məclisdə təmsil olunan siyasi partiyalara, 5 faizi isə irəli sürdüyü namizədlər Milli Məclisə keçirilmiş seçkilərdə etibarlı səslərin azı 3 faizini qazanmış, lakin parlamentdə təmsil olunmayan siyasi partiyalar arasında qazanılmış səslərin sayına proporsional bölünür.

Ümumilikdə qanunda mütərəqqi müddəalar yer alıb. Yeni qanunun məqsədi bu gün Azərbaycan cəmiyyətində mövcud olan siyasi partiyaların fəaliyyətinin tənzimlənməsindən, onların cəmiyyətdə yerinin və rolunun müəyyən edilməsindən ibarətdir".

Ə.Kazımovanın sözlərinə görə, sənədin hazırlanması zamanı Azərbaycanda mövcud siyasi sistemin bütün xüsusiyyətləri və Avropa dövlətlərinin bu sahədə təcrübəsi nəzərə alınıb. Beynəlxalq təşkilatların rəyləri də diqqət mərkəzində olub.

"Hesab edirəm ki, yeni qanun müasir dövrün tələblərinə cavab verir. Sənəd öz mükəmməlliyi ilə siyasi partiyaların fəaliyyətində müsbət rol oynayacaq", - deyə partiya sədri bildirib.

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Nazir Vilayət EYVAZOV: "Polis vətəndaşın güvən yeridir"

Yanvarın 13-də Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi ilə Daxili İşlər Nazirliyinin Əlahiddə Çevik Polis Alayında 2022-ci ildə görülmüş işlərin yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş əməliyyat müşavirəsi keçirilib.





Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə çıxış edən nazir V.Eyvazov ölkədə mövcud olan sabitliyin və təhlükəsizlik şəraitinin daha da möhkəmləndiyini, ictimai asayişin ötən ildə də etibarlı qorunduğunu, əldə edilən müsbət nəticələrdə alayın şəxsi heyətinin də böyük əməyi olduğunu diqqətə çatdırıb. Bununla belə, nazir xidmətdə müəyyən nöqsan və çatışmazlıqların da mövcudluğunu qeyd edərək onların tezliklə aradan qaldırılmasını tələb edib.

Sonra alay komandiri polis general-mayoru Səhlab Bağırov hesabat dövrünün yekunları və qarşıda duran vəzifələr barədə çıxış edərək görülən işlərin nəticələri ilə bağlı məruzə edib.

Müşavirəyə yekun vuran daxili işlər naziri xidməti vəzifələrin uğurla yerinə yetirilməsi üçün ölkə rəhbərliyinin tapşırığına əsasən hər cür şəraitin yaradıldığını, şəxsi heyətin hərtərəfli dövlət qayğısı ilə əhatə olunduğunu nəzərə çatdırıb.

Polisin insanların güvən yeri olduğunu vurğulayan nazir V.Eyvazov hər bir əməkdaşın qanun çərçivəsində hərəkət edərək insanların köməyinə çatmasını, onların həyati problemlərinin həllinə yardımçı olmasını, müraciətlərinə həssaslıqla yanaşmasını, habelə vətəndaşlarla ünsiyyətdə nəzakətli davranmalarını tələb edib. O, əmin olduğunu bildirib ki, alayın şəxsi heyəti qarşıya qoyulan tapşırıqları bundan sonra da əzmlə yerinə yetirəcək, göstərilən etimadı sədaqətli xidməti ilə doğruldacaq.

# Bu il Böyük qayıdışın növbəti addımlarından biri olacaq

Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində çox mühüm məqamlara toxundu.

Dövlət başçısı İkinci Qarabağ müharibəsindən sonra bizim əsas vəzifəmizin şanlı hərbi Qələbəmizi siyasi müstəvidə də təsdiqləmək olduğunu diqqətə çatdırdı: "Biz dərhal işə başladıq. Çünki yaxşı başa düşürdük ki, əgər biz siyasi sahədə bu Qələbəni təsdiqləməsək, onu dünya ictimaiyyətinə qəbul etdirməsək, müəyyən problemlərlə üzləşə bilərik. Dərhal fəal işə başladıq və hesab edirəm ki, bu gün - artıq müharibədən iki il keçəndən sonra tam əminliklə demək olar ki, müharibənin nəticələri dünya tərəfindən qəbul edilib. Azərbaycanın haqlı olması bir daha təsdiqlənib və müharibənin sonunda yaranmış vəziyyəti biz daha da möhkəmləndirməliyik, yəni öz mövqelərimizi daha da gücləndirməliyik. Son iki il ərzində həm beynəlxalq əlaqələr müstəvisində, həm ölkə daxilində biz istədiyimizə nail ola bilmişik".

### Qarabağ və Şərqi Zəngəzurun yaşayış məskənləri yenidən qurulur

Prezident İlham Əliyev Zəngəzur dəhlizinin reallaşmasının tarixi zərurət olduğunu diqqətə çatdırdı. Bildirdi ki, Ermənistan istəsə də, istəməsə də bu reallaşacaq: "Yəni bunu Ermənistanda yenə növbəti təhdid kimi qəbul edirlər, halbuki belə fikrim yox idi. Sadəcə olaraq, bu qaçılmazdır. Bu, gec-tez olacaq. Əlbəttə, biz istəyirik ki, tez olsun və daha tez olsun", - deyə dövlət başçısı bildirdi.

Azərbaycan xalqı tarixən humanistliyi, sülhsevərliyi ilə tanınıb. Hər zaman münaqişəni yaradan və alovlandıran tərəf erməni işğalçıları olublar. 1980-ci illərin sonlarından yenidən təxribatlara əl ataraq dinc, günahsız azərbaycanlıları qətlə yetirən, utanmadan Azərbaycana qarşı ərazi iddiaları irəli sürən də onlar idilər. Qarabağ və Şərqi Zəngəzur ərazilərini xarici havadarlarından da güc, hər cür yardım alaraq 1990-cı illərdə işğal etməklə məqsədlərinə çatdıqlarını güman etdilər. Dünyanın ən əsrarəngiz məskənlərindən olan həmin yerləri otuz ilə yaxın əsarətdə saxladılar və nəinki tikib qurmadılar, təbiətinin gözəlliklərini qorumadılar. Əksinə, törətdikləri dağıntılarla dünyaya vandalllıqlarını, mənfur xislətlərini bir daha göstərdilər. Heç bir tarixi və mənəvi bağları olmayan Qarabağda və Şərqi Zəngəzurda qədim abidələri, müasir tikililəri yerləyeksan etdilər. Ermənilər sübut etdilər ki, o torpaqlara yaddırlar, gəlmədirlər və heç bir halda bu ögeylikdən qurtulub həmin yerlərin qədir-qiymətini bilməzlər.

Prezident İlham Əliyev yerli kanallara müsahibəsində ordumuzun müharibə zamanı öz gücünü, iradəsini, xalqımızın bütövlükdə əyilməz ruhunu göstərdiyini qürurla nəzərə çatdırdı. İgid Azərbaycan oğullarının böyük rəşadət nümayiş etdirdikləri, düşmənə gözdağı verdikləri o əsarətdən qurtulmuş torpaqlarımıza, dövlət başçısının müsahibəsində vurğuladığı kimi, Böyük qayıdış başlayıb. Otuz ilə yaxın davam edən işğaldan sonra Qarabağ və Şərqi Zəngəzurun yaşayış məskənləri - kəndləri, qəsəbələri, rayonları, şəhərləri yenidən qurulur. Və qurulduqca, abadlaşdırıldıqca öz doğma sakinlərini qarşılayır. Həyata keçirilən sürətli və geniş tikinti, bərpa-quruculuq işləri əminlik yaradır ki, bu proses uğurla davam edəcək. Və çox keçməz ki, Qarabağda və Zəngəzurda həyat öz axarına düşəcək.

### Torpaqların sahibləri geri qayıdırlar

Yerli telekanallara müsahibəsində Prezident İlham Əliyev daha bir sevindirici məqama diqqəti çəkdi: "Əlbəttə, istəyirəm ki, tezliklə bütün keçmiş köçkünlər dədə-baba torpaqlarına qayıtsınlar və biz əlimizdən gələni edəcəyik ki, bunu tezləşdirək. Laçında hazırda yüzlərlə ev yenidən qurulur, təmir edilir, o cümlədən ictimai binalar. İlin sonuna qədər dediyim kimi, laçınlıların birinci qrupunu biz artıq yerləşdirəcəyik. Zabux və Sus kəndlərində də, məncə, 200-dən çox ailə məskunlaşacaq".

Dövlət başçısı bununla paralel olaraq bir çox kəndlərimizdə də artıq inşaat işlərinə başlanıldığını qeyd etdi. Təqribən birinci mərhələdə 100-ə qədər yaşayış məntəqəsinin yenidən qurulmasının nəzərdə tutulduğunu bildirdi. İndi Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda çoxmərtəbəli evlərin tikintisinə də başlandığını, bir neçə kəndin təməlinin qoyulduğunu, yəni 2023-cü ilin Böyük qayıdışın növbəti addımlarından biri olacağını dedi. Prezident İlham Əliyev xatırlatdı ki, əlbəttə, Ağalı kəndi birinci addım idi. Bu il Ağalı kimi dogma sakinlərinə qucaq açan, xoş günləri başlayan yaşayış yerlərimiz çox olacaq.

Mühüm məsələlərdən birinə də diqqət çəkən dövlət başçısı bildirdi ki, təhlükəsizlik məsələləri də ciddi nəzərə alınmalıdır. Prezident təəssüflə 279 azərbaycanlının mina partlayışlarında ya həlak olduğunu, ya da sağlamlığını itirdiyini nəzərə çatdırdı. Bildirdi ki, ona görə oraya qayıdacaq soydaşlarımız çox ehtiyatlı olmalıdırlar, ancaq icazəli yerlərə getməlidirlər.

Düşmən mənfur əməllərindən əl çəkmək istəməsə də, Azərbaycan xalqı, Azərbaycan dövləti qətiyyətlə öz yolunu davam etdirir. Azərbaycanlılar Ermənistanın otuz ilə yaxın uçurduğu, dağıtdığı, yandırdığı, məhv etdiyi yaşayış məskənlərimizi abadlaşdırır, qurub-yaradırlar. Elektrik enerjisi ilə bağlı bütün məsələlər həll olunub. Qarabağ və Şərqi Zəngəzur vahid bir enerji şəbəkəsinə qoşulub. Avtomobil yolu salınır, körpülər tikilir. Bütün bu işlər gərgin zəhmət və vəsait tələb edir. Çünki dövlət başçısının vurğuladığı kimi, biz sıfırdan başlayırıq: "Elə bir məkan qurmalıyıq ki, bu, 30 il həsrət içində yaşayanlar üçün təsəlli olsun. Onlar buna layiqdirlər. Digər tərəfdən, dünyaya da göstərək, bax torpağın sahibləri qayıdıblar, bax viran qoyulmuş torpaqlar gülüstana çevrilib".

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR
dirçəliş yolundadır



# Bu il laçınlıların da yurd həsrətinə son qoyulacaq

## Prezident İlham Əliyev bəyan etdi ki, 2023-cü ilin prioriteti Böyük qayıdışın sürətləndirilməsi olacaq

"...Mən onlar qədər xoşbəxtəm, yəni onlardan fərqlənmirəm. Çünki onları orada görmək, gözlərini görmək, onların sevincini görmək, doğurdan da böyük xoşbəxtlikdir, həddindən böyük xoşbəxtlikdir. Əlbəttə, istəyirəm ki, tezliklə bütün keçmiş köçkünlər qayıtsınlar dədə-baba torpaqlarına və biz əlimizdən gələni edəcəyik ki, bunu tezləşdirək".







Yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsi zamanı keçmiş məcburi köçkünlərlə bağlı hisslərini dilə gətirən Prezident İlham Əliyev bir daha Azərbaycan dövlətinin qarşısında duran vacib milli prioritetlərdən birinin Böyük qayıdış, bir qərinədir ki, yurdundan didərgin salınmış insanlarımızın dədə-baba yurdlarına qovuşdurulması olduğunu bəyan etdi.

### Gerçəkləşdirilən nəhəng layihələr

Vətən müharibəsindəki tarixi zəfərdən sonra Azərbaycan çağırışlarla dolu və bir-birindən parlaq uğurlar əldə etdiyi yeni dövrə qədəm qoyub. Heç şübhəsiz, bu uğurların başında 30 illik işğal dövründə Ermənistan tərəfindən viran qoyulan Qarabağ və Şərqi Zəngəzurda qısa zaman içərisində nəhəng bərpa və quruculuq işlərinin aparılması, o yerlərə həyatın qayıdışı üçün mühüm layihələrin həyata keçirilməsi gəlir.

Vətən müharibəsi başa çatandan dərhal sonra Azərbaycan dövləti, Böyük qayıdışın tezliklə gerçəkləşdirilməsi üçün əzm və səylə çalışır. Buna görə də işğaldan azad edilmiş ərazilərdə ilk öncə irimiqyaslı infrastruktur layihələri icra olunur. "Qarabağın hava qapısı" Füzuli Beynəlxalq Hava Limanı cəmi səkkiz ay ərzində tikilib istifadəyə verilib. Ötən il oktyabrın 20-də Zəngilan Beynəlxalq Hava Limanının açılış mərasimi keçirilib. 2025-ci ildə isə Laçın Beynəlxalq Hava Limanının istifadəyə verilməsi nəzərdə tutulur.

Təsdiq olunmuş investisiya planına əsasən, hazırda işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazisində ümumi uzunluğu iki min kilometrdən çox avtomobil yolu, 50 kilometrdən çox olan tunellər salınır. Həmçinin bu ərazilərdə 100-dən çox körpü salınacaq.

Azad olunmuş ərazilərdə elektrik təchizatı tamamilə bərpa edilib, bütün Qarabağ və Şərqi Zəngəzur vahid bir enerji şəbəkəsinə qoşulub. Azad olunmuş torpaqlarda 11 su-elektrik stansiyası inşa edilib və onların generasiya gücü təqribən 55 meqavata yaxındır. Cari ildə Cəbrayılda Günəş-Elektrik Stansiyasının inşasına başlanılması planlaşdırılır.





### Böyük qayıdışın sürətli inkişaf mərhələsi

Qarabağda və Şərqi Zəngəzurda dövlət başçısının birbaşa diqqəti və nəzarəti altında həyata keçirilən işlər sayəsində ötən il Zəngilanın Ağalı kəndinin timsalında Böyük qayıdışın başlanğıcına qürurlu şahidlik etdik. Artıq ağalılılar hər yeni günü sevinclə doğma kəndlərindən salamlayırlar.

Bu il isə yurd həsrəti bitən, doğma ocaqlarına qayıdan ilk bəxtəvərlər laçınlılar olacaq. Çünki dövlətimiz Laçın şəhəri işğaldan azad olan kimi burada da geniş quruculuq-bərpa işlərinə başlayıb. Bu ilin sonuna qədər laçınlıların birinci qrupu artıq şəhərdə yerləşdiriləcək. Eyni zamanda cari il Zabux və Sus kəndlərində 200-dən çox ailə məskunlaşdırılacaq.

"...2023-cü il artıq Böyük qayıdışın ilk addımlarından biri olacaq. Əlbəttə, Ağalı kəndi birinci addım idi. Amma biz bu il bunu, inşallah, daha kütləvi surətdə görəcəyik", - deyə müsahibəsində məlumat verən dövlət başçısı bildirdi ki, Laçında hazırda yüzlərlə ev yenidən qurulur, təmir edilir, o cümlədən ictimai binalar tikilir.

Bununla paralel olaraq, bir çox kəndlərdə inşaat işlərinə başlanılıb. Təqribən birinci mərhələdə 100-ə qədər yaşayış məntəqəsinin yenidən qurulması nəzərdə tutulur. Hazırda Şuşada, Ağdamda, Füzulidə, Zəngilanda çoxmərtəbəli evlərin tikintisinə başlanılıb. Bir neçə kəndin təməli qoyulub. Həmçinin Şuşada, Ağdamda, Füzulidə məktəblər, xəstəxanalar hazır vəziyyətə gətiriləcək.

Bəli, bu il Böyük qayıdışın sürətli inkişaf mərhələsinə başlayırıq. Vətən müharibəsində yurdlarının azadlığı ilə qəlbləri xoşbəxtliklə aşıb-daşan keçmiş məcburi köçkünlərin, indi də ürəkləri torpaqlarına dönmək üçün atlanır. Onların hər biri, ağalılılar kimi tarixi ərazilərinə qayıdıb yeni həyata başlamağa tələsirlər və hər ötən an onları bu müqəddəs istəklərinə bir addım daha da yaxınlaşdırır.

Çünki Azərbaycan dövləti illərdir vətəndə illərdir qəribçilik çəkən yüzminlərlə vətəndaşımızın tezliklə Qarabağa və Şərqi Zəngəzura qayıdışı üçün o yerlərdə misilsiz işlər, meqalayihələr həyata keçirir.

Dövlət başçısı İlham Əliyev sözügedən müsahibəsində bir daha vurğuladı ki, keçmiş məcburi köçkünlər üçün elə bir məkan qurmalıyıq ki, bu, 30 il həsrət içində yaşayanlar üçün təsəlli olsun: "Onlar buna layiqdirlər. Digər tərəfdən, dünyaya da göstərək, bax torpağın sahibləri qayıdıb, bax viran qoyulmuş torpaqlar görün gülüstana çevrilib".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Milli qürurdan bəhrələnən ümidlər

Haqla iblisin mübarizəsi hər zaman - tarixin bütün dönəmlərində olub. Bu ikiqütblü-təzadlı savaş həmişə də nazilən, incələn, lakin əyilməyən, qırılmayan haqqın qələbəsi, ədalətin təntənəsi ilə nəticələnir. Təəssüf ki, hər dəfə uduzan, məğlub olan iblis öz xislətindən, bəd niyyətindən əl çəkmir. Zavallı, miskin dona bürünüb. Haqqı yenidən qanlı savaşa sövq edib. Haqqın səbrinin tükənən, qələbənin kükrəyən vaxtına, ədalətin bərqərar olma anınacan meydan sulayıb.



İblislə haqqın mübarizəsi təkcə mifoloji anlam daşımır, həyatın gerçək üzü, bəşərin mübtəla olduğu ağrılı-acılı həqiqətdir. Babalarımızın sığınmağa yer verdikləri, yurd-yuva qurmalarına yardım etdikləri və bununla qonşu olmağa məhkum olunduğumuz erməni əməlləri də iblis xislətinin ən çirkin, əzazil formasıdır. "Böyük Ermənistan" yaratmaq xülyasına düşən bu nankorların məkri, hiyləsi sayəsində torpaqlarımız zaman-zaman işğala məruz qalıb, yurdlarımız dağıdılıb talan edilib, soydaşlarımız fəlakətlərə, soyqırımlara düçar olub. Bu iblis niyyətlilərin ucbatından uzun illər idi yurd yerlərimiz xarabazarlığa, bir milyondan çox insan vətəndə vətən həsrətlisinə çevrilib, qaçqın, didərgin, məcburi köçkün taleyi yaşayıblar.

...Deyirlər, zaman ən sağalmaz dərdlərin dərmanıdır. Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və məqsədyönlü addımı ümidlərimizi cücərtdi. 44 günlük Vətən müharibəsində igid ərənlərimiz yurddaşlarımıza qələbə sevincini yaşatdılar. Xalqımızın mübariz övladlarının rəşadəti dünyaya səs saldı. İnsanların dogma yurd-yuvasına qayıdışı başladı. Bu, eyni zamanda Vətən oğullarının ülvi amallar naminə hər cür fədakarlığa hazır olduqlarını göstərdi və sübut etdi ki, Aprel döyüşlərindən, Günnütdən başlanan yol Kəlbəcərə, Şuşaya, Laçına, Qubadlıya, Ağdama, nəhayət, cənnət Qarabağımıza açılan qapıdır. Ali Baş Komandanımızın əmrindən sonra Azərbaycan əsgərinin qarşısında heç bir maneə dura bilmədi. Onlar qalib əsgər kimi bayrağımızı işğal altında olan torpaqlarda dalğalandırdılar.

Ən müasir texnika ilə silahlanan ordumuzun sarsılmaz qüdrəti, bu orduda təmsil olunan hərbçilərin taktiki döyüş hazırlığı, şəhid deyil, qalib olmaq bacarığı qələbə əzmimizi daha da artırdı, rəşadətimizi təsdiqlədi. Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi: "Bu gün sirr deyil ki, Azərbaycan dünyada çox etibarlı və ciddi tərəfdaş kimi tanınır. Azərbaycan o ölkələrdəndir ki, öz sözünü açıq deyir, müstəqil siyasət aparır. Əlbəttə ki, bunun təməlində həm hərbi gücümüz, həm də şanlı qələbəmiz dayanır".

İndi Vətəndən ayrı düşən Qərbi Azərbaycanda, eləcə də cənnət Qarabağımızda məzarları dağıdılan bütün ululların ruhları şad olur.

Prezident İlham Əliyev ötən il dekabrın 24-də Qərbi Azərbaycan İcmasının binasının açılışı tədbirində vurğulayıb: "Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar".

Uzun illərdir girovluq, əsirlik sükunətinin hönkürdüyü doğma yerlərdə bu gün böyük quruculuğun əks-sədası hökm sürür. Sərt qayaların beli sökülür, daha müvafiq, münasib yerlərdən rahat yollar salınır, ərazinin etibarlı müdafiəsi üçün rahat binalar inşa olunur, postlar arasında dayanıqlı rabitə əlaqəsi və digər müvafiq işlər həyata keçirilir. Artıq Zəngilan rayonunda "ağıllı kənd" konsepsiyası üzrə ən müasir tələblərə cavab verən yaşayış məskəni salınıb. Ata-babaları Zəngilandan olan uşaq və gənclərin vətənə, torpağa olan sevgiləri, bağlılıqları onları doğma torpaqlara qaytarıb.

Yanvarın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsi zamanı deyib: "Zəngəzur dəhlizinin iqtisadi səmərəsi heç kimdə şübhə doğurmamalıdır. Əlbəttə, bizim üçün bu layihə təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, bu, bizim üçün strateji bir layihədir. Tam əminik ki, bu layihənin reallaşması bizim təbii hüququmuzdur".

Haqq savaşında qalib gəlməyin 3 əsas şərtini məşhur fatehlərdən biri belə dəyərləndirib: "Güclü iqtisadiyyat, qüdrətli ordu, böyük inam. Və bu üç şərtdən hansı daha önəmlidir sualına sərkərdə inam, inam, inam cavabı verib".

Xalqın ölkə Prezidenti İlham Əliyevə olan dərin inamı həyatımızın etibarlı əllərdə olduğunu bir daha təsdiqləyir: "...Mən hesab edirəm və ümid etmək istəyirəm ki, 2022-ci il İkinci Qarabağ müharibəsinin real sonu olacaq və bu il belə hadisələr baş verməyəcək. Mən yenə də deyirəm, əgər görsək ki, bizə qarşı hər hansı bir təhlükə varsa və Ermənistan öz havadarları ilə bizə qarşı hansısa təxribat planlaşdırırsa, biz dərhal əlimizdə olan bütün imkanlarla bu təhlükəni aradan götürəcəyik və bəri başdan onları və onların arxasında dayananları da xəbərdar edirik".

Artıq Ali Baş Komandan İlham Əliyevin yürütdüyü daxili və xarici siyasət nəticəsində Azərbaycan beynəlxalq müstəvidə öz sözünü deyən ölkəyə çevrilib.

***Adilə SƏFƏROVA,***
***Azərbaycanın Əməkdar mədəniyyət işçisi, Naxçıvan Televiziyasının əməkdaşı***

# Sülh müqaviləsi qaçılmazdır

## İlham Əliyev Ermənistana və onun havadarlarına bir daha hərbi-siyasi diplomatik danışıqların ən doğru yolunu göstərdi

***Əvvəli 1-ci səh.***

İlham Əliyev isə deyir ki, istəmirlərsə, heç lazım da deyil. Delimitasiyanı da istəmirlərsə, heç bizə də lazım deyil. Demək, sərhəd bizim lazım bildiyimiz yerdən keçəcək.

Azərbaycan Prezidenti deyir ki, uzun müddət belə yaşamaq mümkündür, sülh müqaviləsi olmasa, heç lazım da deyil. Amma sonra nə olacaq? Sonrasına baxarıq: "Buna görə də düşünürəm ki, onlar mənim mesajlarımı eşidəcək və düzgün nəticə çıxaracaqlar. Bir daha deyirəm, mən indiki halda təzyiq göstərən tərəf kimi görünmək istəmirəm və heç bir halda, heç bir şəraitdə hətta hörmətə layiq olmayana da hər hansı hörmətsizlik göstərməmişəm. Sadəcə, bir daha nəzərə çatdırmalıyam. Ona görə ki, mənim fikrimcə, bu il sonuncu şans olacaq. Ona görə ki, sonra 2024-cü il gəlir, sonra 2025-ci ildə Rusiyanın sülhməramlı missiyası başa çatır. Onlar burunlarının ucundan bir qədər irəli barədə düşünməlidirlər".

### Azərbaycan üçüncü müharibəyə başlamaq istəmir

Hər zaman verdiyi vədlərə, səsləndirdiyi fikirlərə sadiqliyi ilə seçilən Azərbaycan Prezidenti İkinci Qarabağ müharibəsindəki zəfərdən sonra regionda yaranmış reallıqlar fonunda yeni missiyasını yerinə yetirir - Cənubi Qafqazda sülhün, sabitliyin təmini, müasir əməkdaşlıq platformalarının yaranması. Bütün bunlar İlham Əliyevin son dövrlərdə keçirdiyi bütün görüşlərdə, tədbirlərdə, konfranslarda səsləndirdiyi fikirlərdə də təsdiqini tapır.

Beynəlxalq birlik, müxtəlif dövlətlər və təşkilatlar tərəfindən səslənən fikirlərə əsaslanaraq deyə bilərik ki, Azərbaycan Prezidentinin bu addımı təqdir edilir. İlham Əliyevin söylədiyi kimi, regionda dəyişən reallıqları hətta vasitəçilər də etiraf edirlər. Həm Qarabağ münaqişəsinin həlli istiqamətində vasitəçilik missiyası yerinə yetirmiş ölkələr, həm də Avropa İttifaqı, ATƏT kimi mötəbər təşkilatların İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi siyasətə dəstək nümayiş etdirmələri bunu təsdiqləyir.

Ancaq hazırda Ermənistanın sərgilədiyi mövqe onu deməyə əsas verir ki, bu ölkə sülh müqaviləsi imzalamaq fikrində deyil. Bunu son zamanlar Avropada Azərbaycana qarşı aparılan çirkin kampaniyalar da göstərir. Amma Prezident dedi ki, nə qədər çalışsalar da, Azərbaycanın üçüncü müharibəni başlamaq fikri yoxdur: "Bizi bu işdə günahlandıranlar, sadəcə olaraq, ya erməni təbliğatının qurbanları olublar, ya da ki, bizə qarşı yenə də uydurma və böhtan kampaniyası aparmaq istəyirlər. Onu da deməliyəm ki, indi bəzi Qərb mətbuatında bizə qarşı yeni dalğa, çirkin böhtan kampaniyası artıq geniş vüsət alır. Onun ilk təzahürlərini biz görürük, amma ehtimal edilir ki, növbəti çirkin addımlar da atılacaq. Amma bu, bizi dayandırmayacaq. Ona görə mən hesab edirəm və ümid etmək istəyirəm ki, 2022-ci il İkinci Qarabağ müharibəsinin real sonu olacaq və bu il belə hadisələr baş verməyəcək. Mən yenə də deyirəm, əgər görsək ki, bizə qarşı hər hansı bir təhlükə varsa və Ermənistan öz havadarları ilə bizə qarşı hansısa təxribat planlaşdırırsa, biz dərhal əlimizdə olan bütün imkanlarla bu təhlükəni aradan götürəcəyik və bəri başdan onları və onların arxasında dayananları da xəbərdar edirik".

İlham Əliyev bir daha revanşistlərə səslənərək dedi ki, ölkə ictimaiyyətini aldadaraq müharibəyə təhrik etmək yolverilməzdir. Çünki Azərbaycan istənilən təhlükəni dərhal məhv edəcək. İstər öz ərazisində olsun, istərsə da başqa ərazidə, istənilən təhlükə aradan qaldırılacaq. Bu, Azərbaycanın legitim hüququdur: "Belə cəhdlər var və biz görürük, bilirik hansı ölkələr Ermənistana silah verməyə hazırlaşırlar. Əfsuslar olsun ki, onların arasında Hindistan da indi rol alıb. Biz bunu qeyri-dost addım kimi qiymətləndiririk. Çünki bu silahların, özü də hücum silahlarının bir hədəfi var, o da Azərbaycandır. Ona görə biz, əlbəttə ki, lazımi tədbirləri görürük və imkan verə bilmərik ki, Ermənistan bizim üçün təhlükə yaratsın, heç vaxt imkan verə bilmərik".

### Artıq Fransa faktiki olaraq özü-özünü danışıqlar prosesindən tamamilə təcrid edib

Sülh danışıqları ilə bağlı keçirilən görüşlərə də münasibətini bildirən İlham Əliyev bir daha dedi ki, həqiqət ortadadır, müqavilə yalnız Azərbaycanın maraqları çərçivəsində imzalanmalıdır. Heç bir "status" söhbəti ola bilməz. Xankəndidə yaşayan ermənilər üçün də yollar açıqdır. İstədikləri qərarı verə bilərlər.

Minsk qrupu "rəhmətə gedəndən" sonra indi Avropa İttifaqı öz rolunu oynamağa başlayıb və Azərbaycan da bunu dəstəkləyib. Ancaq İlham Əliyev bəyan edib ki, əgər arxada başqa oyunlar gedəcəksə, onda bu formatın da gələcəyi şübhə altına düşəcək. Artıq Fransa faktiki olaraq özü-özünü bu prosesdən tamamilə təcrid edib. "İndi qalır Amerika və Rusiya. Yəni danışıqlar meydançalarını hazırda belə görürük. Əlbəttə ki, Avropa da ola bilər, amma əgər, yenə də deyirəm, bizimlə özünü dürüst aparsa", - deyə İlham Əliyev vurğulayıb.

Ən əsası odur ki, bütün bu çirkinliklərə görə Fransanın Qafqazı itirdiyi dəqiqdir. Yəqin ki, bundan sonra rəsmi Paris Azərbaycanın Qafqazın taleyini müəyyənləşdirən heç bir layihəsində iştirak edə bilməyəcək. Baş verən bütün proseslər, Azərbaycan Prezidentinin ortaya qoyduğu qətiyyətli mövqe onu deməyə əsas verir ki, İlham Əliyev antiazərbaycançı dairələrə ədalət dərsi keçir və Ermənistan da, Fransa da, bu şəbəkənin digər üzvləri də bundan nəticə çıxarmalıdırlar. Əks təqdirdə "dəmir yumruq" yenə öz sözünü deyəcək.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Vətəndaş cəmiyyəti nümayəndələri və ictimai fəallar ekoloji cinayətə və qanunsuz istismara etirazlarını davam etdirirlər

## Azərbaycan bayrağı Qarabağın bütün ərazilərində dalğalanacaq

44 günlük Vətən müharibəsindəki ağır məğlubiyyətdən sonra da ermənilərin "düzələcəyini", səhvlərini anlayıb düz yola gələcəklərini düşünənlərin sayı çox deyildi. Ermənistanın baş naziri Nikol Paşinyan dəfələrlə mətbuata açıqlamasında bəyan edib ki, üçtərəfli Bəyanatı imzalamaqla Ermənistan ordusunu tamamilə məhv olmaqdan xilas edib. Aydın məsələdir ki, müharibəni dayandırmaq üçün hər gün yalvaran, "vasitəçi" dövlət başçılarına minnətçi düşən Paşiniyanın əsas məqsədi regionda sülhə nail olmaq yox, Ermənistan ordusunun qalıqlarını xilas etmək idi.




O zaman Ermənistanın hərbi-siyasi rəhbərliyi elə zənn edirdi ki, müharibədə taymaut götürmək hələ tam məğlubiyyət deyil. Sonradan revanş götürüb müharibədə itirdiklərini yenidən bərpa edə bilərlər. Az sonra Ermənistanın üçtərəfli Bəyanatın şərtlərini yerinə yetirməkdən müxtəlif bəhanələrlə yayınması, sərhədlərin delimitasiya olunmasına maneçiliklər törətməsi, yenidən silahlanmaya daha çox meyil etməsi və 2022-ci ilin sentyabrında sərhədlərimiz boyu Ermənistanın ordu, ağır texnika cəmləşdirib təxribat törətməsi, düşmən ölkənin gizli niyyətinin açıq təzahürü idi. Müzəffər Azərbaycan Ordusu növbəti dəfə də düşmənə layiq olduğu dərsi verdikdən sonra Ermənistandan bir maşa kimi istifadə edən, Cənubi Qafqazda sabitliyin yaranmasında marağı olmayan dövlətlər əsl simasını göstərdilər. Qonşu İrandan Azərbaycana təhdidlər gəldi, Fransa illərdir gizləndiyi maskanın arxasından çıxaraq əsl üzünü göstərməyə başladı.

Xankəndiyə yenidən müharibə təbliğatı aparan, aranı qızışdıran emisarlar göndərildi. Niyyətləri sülh danışıqlarını pozmaq, itirdikləri mövqelərini yenidən bərpa etmək, Qarabağ kartından istifadə edərək Ermənistana və Azərbaycana təzyiq göstərməkdən başqa bir şey deyil. Görünən budur ki, nəfsinə gücü çatmayan, ömrü boyu onun-bunun hesabına yaşayan, iqtisadi potensialı zəif olan, müstəqil siyasət yürütməyən Ermənistan bəzi qüvvələrin əlində oyuncaq kimi istifadə etmək üçün vasitədir və bundan da istifadə edilir.

Ermənistan dalana dirənib. İqtisadiyyatı çöküb. Xarici borcu artıb. İqtisadi cəhətdən asılılıq faktiki olaraq Ermənistanın siyasi müstəqilliyini də təhlükədə qoyub. Ağır durumda olan Ermənistan çıxış yolunu yenə Qarabağda "tapıb". Yenə təbii sərvətlərimizi talamaqla bizi sınağa çəkmək istəyir. Bu dəfə Azərbaycan cəmiyyətinin reaksiyası daha sərt oldu. Vətəndaş cəmiyyətinin nümayəndələri, gənclər, mətbuat nümayəndələri, ekofəallar Qarabağa gedərək ermənilərin qanunsuz istismar etdikləri "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinq aparmaq niyyətində olduqlarını Rusiya sülhməramlılarının komandanı general Volkova bildirdilər. Buna şərait yaradılmadıqda isə Laçın-Xankəndi yolunun Şuşadan keçən hissəsində tələbləri yerinə yetirilənə kimi müddətsiz etiraz aksiyasına başladılar...

Sanki azərbaycanlı vətənpərvər gənclərin başladıqları etiraz aksiyası pusquda durub Azərbaycanın əleyhinə qara piar aparanların əlinə fürsət verdi. Ermənistanın ən yaxın tərəfdaşı Fransa məsələnin BMT Təhlükəsizlik Şurasında müzakirəsini istədi və buna da nail oldu. Rusiyalı milyarder Ruben Vardanyan oğurluq yollarla qazandığı pul kisəsinin ağzını açıb ölkəmizin əleyhinə təbliğat kampaniyasına qoşulanları həvəsləndirmək üçün əməlli-başlı xərc çəkdi. Ermənilərin blokadada olmaları barədə hay-həşir qopardılar. Ermənilərin "məzlum" durumda qalmalarını sübut etmək üçün piştaxtaları boşaldıb muzdlu təbliğatçılar vasitəsilə videokadrlar da çəkib tirajladılar. Xankəndidə "talon" sisteminə keçmək barədə "qərarlar" qəbul edib, gecələr restoranlarda "məzlum" ermənilərin kef məclislərindən videolar çəkib sosial şəbəkələrdə nümayiş etdirməyi də unutmadılar. Amma bunu yadlarından çıxarmışdı: Azərbaycan Prezidentinin qətiyyətini, uzaqgörənliyini və xalqımızın öz lideri ətrafında birləşərək apardığı mübarizə əzmini...

Vətənpərvər gənclərin, vətəndaş cəmiyyəti nümayəndələrinin etiraz aksiyası elə ilk gündən öz nəticəsini verdi: birincisi, Ermənistandan Xankəndiyə gələn emisarların qarşısı alındı. Humanitar məqsədlər üçün ermənilərə verilmiş Laçın-Xankəndi yolu ilə Qarabağa silah daşınmasına son qoyuldu. "Qızılbulaq" və "Dəmirli " yataqlarının qanunsuz istismarı dayandırıldı. Bu haqda Qarabağda mədənlərimizi qanunsuz istismar edən "Base Metlas" şirkəti fəaliyyətini dayandırması ilə bağlı məlumat yaydı. İkincisi, Qarabağda, Xankəndidə yaşayan ermənilər aksiyanın keçirildiyi bu günlərdə dərk etdilər ki, torpağın əsl sahibi Azərbaycandır. Separatçıların, missionerlərin vədinə inanıb onların arxasınca getmək ermənilərin son fəlakəti olacaq.

Yeri gəlmişkən dövlət başçısı televiziya kanallarına verdiyi müsahibə zamanı Laçın-Xankəndi yolunda keçirilən etiraz aksiyasına da münasibət bildirdi. Dövlət başçısının məsələyə münasibəti olduqca qürurverici idi: "Laçın-Xankəndi yolunda etiraz aksiyası keçirən gənclər bizim fəxrimizdir. Gecə-gündüz şaxtalı-qarlı havada oradadırlar, öz haqlarını tələb edirlər və bir daha Azərbaycan gəncinin nə qədər yüksək keyfiyyətlərə malik olmasını bütün dünyaya göstərirlər. Bunun, necə deyərlər, bir addımlığında separatçılar dünyaya tamamilə yalan informasiya ötürməklə məşğuldurlar".

Dövlət başçısı qeyd edib ki, orada blokadadan söhbət gedə bilməz. Azərbaycanın məqsədinin blokada olmadığını vurğulayan prezident bildirib ki, bizim tələblərimiz tam ədalətlidir: "Monitorinq, təftiş, qanunsuz istismarın dayandırılması tələb edilir və biz buna nail olacağıq. Ona görə Laçın-Xankəndi yolunda baş verən hadisələrə blokada demək, sadəcə olaraq, insafsızlıqdır".

### Ermənilər yalan vədlərdən və ümidsizlikdən yorulublar

Qarabağda yaşayan ermənilər separatçı rejimin başçısı Araik Arutyunyanın və yeni "xilaskar lider" obrazına girmiş Ruben Vardanyanın verdikləri perspektivsiz boş vədlərdən yorulublar. Sadə erməni vətəndaşlar gözəl dərk edirlər ki, bu iki fırıldaqçının məqsədi onları "xilas" etmək yox, onlardan öz çirkin məqsədləri üçün istifadə etməkdir. Mənasız müharibələr övladlarının güdaza getməsi ilə nəticələnir. Ruben Vardanyan, Araik Arutyunyan cütlüyü, etiraz aksiyası keçirmək üçün "müştəri" tapa bilmirlər. Azərbaycanın artan hərbi, siyasi, iqtisadi gücü separatçıların təkcə yolunu yox, bazarlarını da bağlayıb. Yolların bağlı olması barədə uydurduqları miflə dünya ictimayyətini aldatmağın mümkün olmadığını artıq özləri də dərk edirlər. Erməni siyasətçilərinin yaratdığı ajiotaja, şouya nəinki dünyada, Ermənistanda və Qarabağda da inanların sayı gündən-günə azalmaqdadır. Əslində, Qarabağda yaşayan ermənilər separatçıların hikkələrinin və tamahlarının əsiri olublar, qorxu və tərəddüd içində yaşayırlar.

Prezident İlham Əliyev televiziya kanallarına müsahibəsində Qarabağda yaşayan ermənilərin taleyi haqqında danışarkən dedi: "Mən demişəm, bir daha demək istəyirəm ki, orada Azərbaycan bayrağı altında yaşamaq istəyənlər üçün şərait yaradılacaq. Azərbaycan vətəndaşları kimi onların hüquqları da təhlükəsizliyi də təmin olunacaq".

### Prezidentin mesajı hədəfə çatıb

Dövlət başçısının televiziya kanallarına verdiyi müsahibə Qarabağda da böyük marağa səbəb olub. Sosial şəbəkələrin erməni seqmentində Azərbaycan Prezidentinin müraciətinə münasibət bildirənlərin sayı anbaan çoxalır. Azərbaycan vətəndaşlığını qəbul etmək istəyən ermənilər bunun ən doğru yol olduğunu çəkinmədən ifadə edirlər. Prezidentin müsahibəsindən sonra Azərbaycan vətəndaşlığını qəbul etmək üçün hərbçilərimizə və elektron poçtla dövlət orqanlarına müraciət edənlər də olub.

Beləliklə, çox yaxın zamanlarda Xankəndidə, digər yaşayış yerlərində Azərbaycan bayrağının dalğalandığına da şahid olacağıq. Bunu həm də separatçıların, avantüristlərin yalan vədindən bezmiş sadə ermənilər istəyirlər. Bu yolu onlara Azərbaycan Prezidenti çox açıq şəkildə göstərib.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## "Ekoloji aksiyanı dəstəkləyirik" Türk Dövlətləri Təşkilatı Katibliyinin bəyanatı



Türk Dövlətləri Təşkilatının Katibliyi Azərbaycanın Qarabağ iqtisadi zonasında vətəndaş cəmiyyəti nümayəndələrinin dinc etirazlarına səbəb olan Ermənistan və cinayətkar elementlər tərəfindən təbii sərvətlərin qanunsuz istismarından ciddi narahatdır. Təşkilat ətraf mühitə ciddi zərər vuran, beynəlxalq hüququ pozan bu cür halları pisləyir.

AZƏRTAC xəbər verir ki, bu barədə Türk Dövlətləri Təşkilatı Katibliyinin Azərbaycanın Qarabağ iqtisadi zonasında təbii ehtiyatların qanunsuz istismarı ilə bağlı bəyanatında qeyd olunub.

Bəyanatda vurğulanır ki, Azərbaycanın təbii sərvətlərinin qeyri-qanuni istismarı və Ermənistana daşınması, Ermənistan silahlı qüvvələrinin qalıqlarının qanunsuz mövcudluğu və Azərbaycan ərazisində minaların yerləşdirilməsi Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması prosesinə xələl gətirir. Bu cür hallar regionda sülh və sabitliyin əldə olunmasına xidmət etmir.

Katiblik bu cür qanunsuz hərəkətlərə dərhal son qoymağa çağırır. Bəyanatda həmçinin bildirilir ki, Türk Dövlətləri Təşkilatının Katibliyi ekofəalların və QHT nümayəndələrinin Azərbaycanın Laçın-Xankəndi yolunda dinc etirazlarını dəstəkləyir.

"Türk Dövlətləri Təşkilatının Katibliyi Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş sülh gündəliyini dəstəkləyir", - deyə bəyanatda qeyd olunub.

## *Laçın yolundakı aksiyanın sədası dünyaya yayılır:* xarici jurnalistlər hadisə yerində









Yanvarın 13-də xarici media nümayəndələri Laçın-Xankəndi yolunda keçirilən aksiyanı işıqlandırmaq üçün hadisə yerinə gəliblər.

AZƏRTAC xəbər verir ki, İtaliya, İspaniya, Türkiyə, Rusiya, Macarıstan və Böyük Britaniyadan olan media nümayəndələri aksiya iştirakçılarından müsahibələr alıb, etirazların gedişi barədə məlumatlandırılıblar.

Xatırladaq ki, ötən il dekabrın 3-də və 7-də Rusiya sülhməramlı kontingentinin komandanlığı ilə aparılmış müzakirələrin nəticəsi olaraq Azərbaycanın İqtisadiyyat, Ekologiya və Təbii Sərvətlər nazirlikləri, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti və "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin mütəxəssislərindən ibarət heyət Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının qanunsuz istismarı, bundan irəli gələn ekoloji və digər fəsadlarla bağlı ilkin monitorinq aparmalı idi. Lakin sülhməramlıların hərəkətsizliyi ucbatından monitorinq baş tutmayıb. Buna etiraz olaraq, azərbaycanlı ekofəallar Şuşa ərazisindən keçən Laçın-Xankəndi yolunda dekabrın 12-dən dinc aksiyaya başlayıblar.

## *Azərbaycanın BMT-dəki daimi nümayəndəsi:* "2020-ci ilin payızında döyüş əməliyyatlarının yenidən başlanması Ermənistanın uzun illər boyu cəzasız qalmasının məntiqi nəticəsi idi"

Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatındakı daimi nümayəndəsi Yaşar Əliyev Təhlükəsizlik Şurasında "Beynəlxalq sülhün və təhlükəsizliyin dəstəklənməsində hüququn aliliyinin təşviq edilməsi və möhkəmləndirilməsi" mövzusunda müzakirələrin gedişində çıxış edib.

AZƏRTAC xəbər verir ki, azərbaycanlı diplomat öz çıxışında deyib: "Birləşmiş Millətlər Təşkilatı onun bütün üzvlərini beynəlxalq hüquq qaydaları ilə əlaqələndirmək yolu ilə müharibələrin və insan iztirablarının qarşısını almaq üçün yaradılıb. Bir məşhur alimin dediyi kimi, BMT-nin Nizamnaməsi bu təşkilatın yaradılmasının əsası olan, üzv dövlətlərin hüquq və vəzifələrinin təsbit edildiyi çoxtərəfli müqavilə olmaqla bərabər həm də BMT-nin funksiyalarını müəyyən edən və məhdudlaşdıran konstitusiyadır.

Lakin bu funksiyaların universal və məcburi xarakterinə baxmayaraq, bəzən Nizamnamənin prinsiplərinə açıq-aşkar etinasızlıq göstərilir, bu isə dövlətlərin suverenliyinin və ərazi bütövlüyünün pozulmasına, silahlı münaqişələrin daha da kəskinləşməsinə, identikliyə əsaslanan dözümsüzlüyə, terrorçu və separatist təhlükələrin artmasına gətirib çıxarır. Yaşar Əliyev qeyd edib ki, 1992-ci ilin may ayında Azərbaycan BMT-yə daxil olarkən artıq bir neçə il idi ki, qonşu Ermənistan tərəfindən silahlı təcavüzlə üzləşmişdi, bu təcavüzün əsası qondarma etnik-millətçi ideologiya, saxtalaşdırılmış tarixi narrativlər və əsassız ərazi iddiaları idi.

Ermənistan Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində təsbit olunmuş məqsəd və prinsipləri, o cümlədən mübahisələrin dinc yolla həlli və güc tətbiq edilməməsi prinsiplərini dəstəkləyəcəyini təntənəli şəkildə öhdəyə götürməsinə baxmayaraq, Azərbaycanın suveren ərazisinin xeyli hissəsini güclə zəbt edib və 30 ilə yaxın müddətdə işğal altında saxlayıb. Təcavüzün nəticələri şok doğurur: on minlərlə insan həlak olub; işğal edilmiş bütün ərazilərdə 700.000-dən çox azərbaycanlıya qarşı etnik təmizləmə siyasəti həyata keçirilib; mənim ölkəmdə yüzlərlə şəhər, qəsəbə və kənd yerləyeksan edilib; Azərbaycanın mədəni və dini irsinə, habelə ətraf mühitə böyük ziyan vurulub.

Ermənistan BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə yekdilliklə qəbul edilmiş 822, 853, 874 və 884 nömrəli qətnamələrdə təsbit olunmuş zəruri tələblərə etinasızlıq göstərilib, ATƏT-in rəhbərliyi ilə vasitəçilik fəaliyyəti isə münaqişənin danışıqlar yolu ilə nizamlanmasına şərait yaratmayıb. Müvafiq beynəlxalq təsisatlar tərəfindən adekvat reaksiyanın olmaması, ikili standartlar və hamılıqla tanınmış öhdəliklərə münasibətdə ayrı-seçkilik Ermənistanın öz mövqeyini davam etdirməsinə şərait yaradıb. 2020-ci ilin payızında döyüş əməliyyatlarının yenidən başlanması Ermənistanın uzun illər boyu cəzasız qalmasının məntiqi nəticəsi idi. Azərbaycandakı yaşayış məntəqələrinə Ermənistanın birbaşa hücumları mülki əhali arasında çoxsaylı tələfata və mülki infrastruktura ciddi ziyan vurulmasına gətirib çıxarıb. Azərbaycan yalnız öz suveren ərazisində, BMT Nizamnaməsinə və beynəlxalq hüquqa tam uyğun surətdə hərəkət edərək öz xalqının müdafiəsi və işğal altında olan ərazilərin azad edilməsi üçün qətiyyətli tədbirlər görüb.

Y.Əliyev bildirib ki, müharibə başa çatandan sonra Azərbaycan ilk növbədə azad edilmiş ərazilərin bərpasına və yenidən qurulmasına, keçmiş məcburi köçkünlərin öz yurdlarına təhlükəsiz qayıtmasının və yüksək həyat səviyyəsinin təmin edilməsi üçün bu ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası məsələlərinə diqqət yetirir. Bu məqsədlə Azərbaycan Prezidentinin 2021-ci il 7 iyul tarixli fərmanı ilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılıb. Bu regionlarda genişmiqyaslı işlər davam edir.

Beynəlxalq hüququn hiddətləndirici şəkildə pozulmalarına görə məsuliyyətin təmin edilməsi üçün Azərbaycan BMT-nin Beynəlxalq Məhkəməsində və Avropa İnsan Haqları Məhkəməsində iddia qaldırıb. Bundan əlavə, hərbi cinayətlər törətmiş, terror və muzdlu döyüşçü kimi fəaliyyət göstərən bir neçə nəfər məsuliyyətə cəlb edilib və cəzalandırılıb. Eyni zamanda Azərbaycan hər iki ölkənin beynəlxalq miqyasda tanınmış sərhədləri daxilində suverenliyinin və ərazi bütövlüyünün qarşılıqlı tanınması və buna hörmət edilməsi əsasında Ermənistanla dövlətlərarası münasibətlərin normallaşdırılması prosesinə təşəbbüs edib. Bu təşəbbüsün və Azərbaycan tərəfindən təklif edilmiş normallaşma prinsiplərinin beynəlxalq miqyasda geniş dəstəklənməsinə, son bir il ərzində Azərbaycan tərəfindən intensiv diplomatik səylərə baxmayaraq, Ermənistan tərəfindən bu məsələlərə yanaşmalarla bağlı fəaliyyət razılaşdırılmış öhdəliklərin həyata keçirilməsi üçün müvafiq olmayıb. Azərbaycanlı diplomat qeyd edib ki, Ermənistan tərəfindən səsləndirilən bayağı fikirlər və qərəzli yalanlar İrəvanın illər boyu beynəlxalq hüququ hiddətləndirici şəkildə pozması fonunda yürüdülən çoxdankı siyasətinin tərkib hissəsidir. Paradoksal haldır ki, Azərbaycana qarşı təcavüz törətmiş, 30 ilə yaxın müddətdə Azərbaycanın suveren ərazilərini işğal altında saxlamış, müharibə dövründə kütləvi etnik təmizləmələr aparmış, digər iyrənc cinayətlər törətmiş Ermənistan indi BMT Nizamnaməsinə və beynəlxalq hüquqa istinad edir. Lakin belə düşünmək sadəlövhlük olardı ki, guya Ermənistan sivil davranış norma və prinsiplərinə riayət etməyin zəruri olmasını anlayıb və dərin kök salmış irqi nifrət və üstünlük stereotiplərindən imtina edib.

Y.Əliyev vurğulayıb ki, Ermənistan öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə riayət etməli, özünün silahlı qüvvələrini və qanunsuz silahlı dəstələrini Azərbaycan ərazisindən tamamilə çıxarmalı, ərazi iddialarına və qanunsuz fəaliyyətə son qoymalı, belə hərəkətlərdən çəkinməli, mina terrorizminə son qoymalı, münaqişə dövründə itkin düşmüş bir neçə min azərbaycanlının taleyinə aydınlıq gətirməli, Azərbaycan dövlətinə və Azərbaycan xalqına vurulmuş ziyanı ödəməli, dövlətlərarası münasibətlərlə bağlı diplomatik həllərin tezliklə tapılması məqsədilə birbaşa danışıqlar aparılmalıdır. Diplomat vurğulayıb: "Razılaşdırılmış prinsiplər və öhdəliklər əsasında Ermənistan ilə Azərbaycan arasında ikitərəfli və nəticəvi danışıqların dəstəklənməsi bütün beynəlxalq birlik üçün həmişəkindən daha vacibdir. Düşmənçilik səhifəsini çevirmək, davamlı və möhkəm sülh yaratmaq üçün hələ mövcud olan imkanı nəzərdən qaçırmaq olmaz".

# İŞİMİZ, GÜZƏRANIMIZ

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibə vermişdir. Dövlət başçısı müsahibəsində ötən ilin sosial-iqtisadi yekunları və qazanılan uğurlardan danışmış, eləcə də Azərbaycan-Ermənistan münasibətləri, sülh sazişinin bağlanması, regionda və beynəlxalq aləmdə baş verən geosiyasi məsələlər barədə fikirlərini açıqlamışdır.

## Gərgin dünya fonunda nikbin Azərbaycan

### Prezident İlham ƏLİYEV: "2022-ci ildə qarşıda duran vəzifələri biz bütövlükdə yerinə yetirdik"



Məlumdur ki, dünyada baş verən neqativ geosiyasi durum, Qərblə Rusiya arasında olan gərginlik, Rusiya-Ukrayna müharibəsi qlobal iqtisadiyyata mənfi təsir göstərib. Dövlət başçısının da dediyi kimi, ətrafımızda faktiki üçüncü dünya müharibəsi gedir. Belə vəziyyət istər-istəməz iqtisadi inkişafı zəiflədir, insanların sosial həyatına, güzəranına mənfi təsir göstərir. Prezident müsahibəsində vurğulamışdır ki, dünyada baş verən neqativ proseslərdən xalqımızı qorumaq üçün dövlət müxtəlif sosial layihələr və proqramlar hesabına vətəndaşlarımızın maddi vəziyyətini yaxşılaşdırmağa çalışır. Dövlət başçısı bu məqsədlə geniş kütlənin mənafeyinə xidmət edən yeni sosial paketi imzaladığını vurğulamışdır.

Prezident İlham Əliyev əhalinin sosial müdafiəsinə dövlətin xüsusi əhəmiyyət verdiyini bildirərək demişdir: "Eyni zamanda pensiyaçıların sosial təminatının yaxşılaşdırılması üçün minimum pensiya da 16,7 faiz artırıldı, 280 manata çatdı və bu proses davam etdiriləcək. Yəni son illərin təcrübəsi onu göstərir ki, bu bir dəfə atılan addım deyil, bu, müntəzəm olaraq atılan addımlardır və iqtisadi imkanlarımız artdıqca, əlbəttə ki, gələcəkdə də buna oxşar addımlar atılacaq... Bu gün 60 minə yaxın ailə dövlətdən ünvanlı sosial yardım alır və ildən-ilə bu yardımın məbləği artır. Yəni bu il bir ailəyə düşən müavinət təqribən 460 manat səviyyəsindədir və əlbəttə ki, il ərzində artacaq, o cümlədən orta aylıq əməkhaqqı da. Biz gözləyirik ki, bu il Azərbaycanda orta aylıq əməkhaqqı 900 manatdan çox olacaq. Beləliklə, sosial sahədə bu addımları ataraq həm ehtiyacı olan insanlara arxa-dayaq oluruq, eyni zamanda biz öz siyasətimizə sadiqliyimizi göstəririk".

Ölkəmizdə şəhid ailələrinin üzvlərinə və müharibə əlillərinə verilən maddi dəstək və göstərilən diqqət keçən il də davam etmişdir. Məsələn, ötən il bu statusu daşıyan ailələrə 1500 mənzil verilmişdir. Xatırladaq ki, 2021-ci ildə 1000 ailə bu imkandan yararlanmışdır. Cari ildə ən azı 1500 ailəyə mənzil verilməsi nəzərdə tutulub.

Müharibə qəhrəmanlıq meydanı olmaqla yanaşı, döyüşçülərin müxtəlif dərəcədə xəsarət alıb əlil olmasına səbəb olan bir sınaqdır. Odur ki, belələrinin yenidən cəmiyyətə adaptasiya olunması önəmli məsələlərdəndir. Həmin insanların sosial həyata qayıtması və işləməsi dövlətdən ciddi vəsaitin ayrılmasını tələb edir. Yeri gəlmişkən, bildirək ki, sözügedən müsahibədə də bildirildiyi kimi, İkinci Qarabağ müharibəsində əlil olmuş 379 hərbçi ən müasir protezlərlə təmin edilib. Bununla dövlətin bu istiqamətdə qəbul etdiyi proqram tam icra olunub. Ancaq qeyd etmək lazımdır ki, bunlar yüksək texnologiyalı protezlər olduğu üçün vaxtaşırı dəyişdirilməlidir. Bu məsələ də nəzarətdədir, yenidən protezləşmə davamlı xarakter daşıyır.

Məlumdur ki, dünyada baş verən proseslər nəticəsində qlobal iqtisadiyyatda son illər görünməmiş qiymət artımı baş verib. Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının tərkib hissəsi olduğu üçün bu bahalaşmadan ölkəmizə də pay düşüb. Xüsusən idxal məhsullarında bahalaşma daha çox hiss olunub. Bu isə o deməkdir ki, idxal inflyasiyasını azaltmaq üçün daxili istehsalın artırılması vacibdır. Düzdür, son bir neçə ildə qeyri-neft-qaz sektorunda məhsul istehsalı artıb. Amma bu artım hələlik ölkənin daxili tələbatını tam ödəmir. Ona görə də belə vəziyyətdə vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi mütləq şərtdir. Elə bu ildən minimum əməkhaqqının 15 faiz artırılaraq 345 manata çatdırılması da həmin məqsədə xidmət edir.

Sosial problemlərin həlli üçün dövlətin iqtisadi və maliyyə imkanları geniş olmalıdır. Dünya iqtisadiyyatında baş verən neqativ hallara baxmayaraq, ölkəmizdə dinamik inkişaf qeydə alınıb. Belə ki, ötən il ölkəmizdə ümumi daxili məhsul istehsalının dəyəri rekord həddə - 134 milyard manata çatıb. Xarici ticarət dövriyyəsinin dəyəri isə 50 milyard dolları ötüb. Bu sahədə ili 25 milyard dollarlıq müsbət saldo ilə başa vurmuşuq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## 2022-ci ildə hasil edilən neft və təbii qazın həcmi açıqlanıb

Ötən ilin yanvar-dekabr ayları üzrə operativ məlumatlara əsasən, il ərzində Azərbaycanda 46,7 milyard kubmetr təbii qaz hasil edilib.



Qazın 13,4 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"dən, 25,2 milyard kubmetri "Şahdəniz"dən, 8,1 milyard kubmetri SOCAR üzrə hasil olunub. 2021-ci ilə nisbətən 6,5 faiz, yəni 2,9 milyard kubmetr artımla qaz hasil edilib.

Energetika Nazirliyinin yaydığı məlumata görə, hesabat dövründə xaricə qaz satışı 22,3 milyard kubmetr təşkil edib ki, bu da 2021-ci illə müqayisədə 18 faiz çoxdur. Yanvar-dekabr aylarında Avropaya 11,4 milyard kubmetr, Türkiyəyə 8,4 milyard kubmetr, Gürcüstana isə 2,5 milyard kubmetr qaz satılıb. Türkiyəyə TANAP vasitəsilə bu müddətdə 5,6 milyard kubmetrə yaxın qaz nəql olunub.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 1 yanvar 2023-cü il tarixədək "Azəri-Çıraq-Günəşli"dən 203,4 milyard kubmetr, "Şahdəniz"dən isə 182,8 milyard kubmetrə yaxın qaz hasil edilib. Bu dövrdə "Şahdəniz" yatağından hasil edilən qazın 128 milyard kubmetrə yaxın həcmi ixraca nəql olunub.

2022-ci ilin yanvar-dekabr aylarında ölkədə 32,6 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Respublika üzrə neft hasilatının 20,4 milyon tonu "Azəri-Çıraq-Günəşli"nin, 4,4 milyon tonu (kondensat) "Şahdəniz"in payına düşüb. SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı 7,8 milyon ton təşkil edib.

Hesabat dövründə 26,3 milyon ton neft (kondensatla birlikdə) ixraca nəql olunub. Bunun 24,9 milyon tona yaxını konsorsiumun, 1,4 milyon tonu isə SOCAR-ın payına düşür.

"Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara veriləndən 1 yanvar 2023-cü il tarixədək 607 milyon tondan çox neft (kondensatla birlikdə) hasil edilib. "Azəri-Çıraq-Günəşli"dən 567 milyon ton neft, "Şahdəniz"dən isə 40 milyon ton kondensat çıxarılıb. Bundan 1 yanvar 2023-cü il tarixədək 605 milyon tondan çox ixraca nəql edilib.

2022-ci il ərzində ölkədə neftin emalı 6,2 milyon ton təşkil edib.

## Sənaye zonalarında məhsul istehsalı və ixracı artıb

Sənaye zonaları ölkədə istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından əlverişli mexanizmdir.

İndiyədək sənaye zonaları üzrə ümumi investisiya həcmi 7 milyard manata yaxın 116 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 65-i istehsal fəaliyyətinə başlayıb. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,46 milyard manatdan çox investisiya yatırılıb və 10400-dən artıq daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 460 milyon manata yaxın investisiyanın yatırılması və 4200-dən artıq yeni iş yerinin yaradılması nəzərdə tutulur.

2022-ci ildə sənaye zonalarının rezidentləri tərəfindən ümumilikdə 2,9 milyard manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 1 milyard manatı ixracın payına düşür. 2021-ci illə müqayisədə satış 20,6, ixrac isə 10,08 faiz artıb.

## AYİB-in direktorları Azərbaycana səfər edəcəklər

Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) idarəedici direktoru Mark Bouman, habelə Şərqi Avropa və Qafqaz üzrə siyasət və tərəfdaşlıq sahəsində idarəedici direktoru Matteo Patrone Azərbaycana səfər edəcəklər.




Bankdan cümə günü "Trend"ə verilən məlumata görə, AYİB rəsmilərinin səfəri yanvarın 16-19-na planlaşdırılıb.

"AYİB-in nümayəndə heyəti Azərbaycanın siyasi rəhbərliyi ilə görüşəcək, diplomatik ictimaiyyətin nümayəndələri, beynəlxalq inkişaf tərəfdaşları və biznes müştəriləri ilə görüşlər keçirəcək. Həmçinin Azərbaycan Mərkəzi Bankının nümayəndələri ilə görüşlər gözlənilir", - deyə AYİB-dən bildiriblər.

## Azərbaycana "Wizz Air"lə uçuşların artırılması müzakirə olunub

Macarıstanın "Wizz Air" şirkətinin icraçı vitse-prezidenti Ovein Jonsun rəhbərliyi ilə ölkəmizdə səfərdə olan nümayəndə heyəti rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəhman Hümmətovla görüşüb.

Macarıstanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Tamaş Yojef Tormanın da iştirak etdiyi görüşdə Azərbaycanla "Wizz Air" şirkəti arasında aviasiya sahəsində əməkdaşlıq məsələləri müzakirə olunub. Eyni zamanda Bakı və regionlardakı hava limanlarına şirkət tərəfindən uçuşların sayının artırılması imkanlarına dair fikir mübadiləsi aparılıb. Qonaqlara ölkəmizdə aviasiya sahəsində həyata keçirilən işlər haqqında ətraflı məlumat verilib.

"Wizz Air" şirkətinin icraçı vitse-prezidenti Ovein Jons ölkəmizə və region üzərindən uçuşların artırılmasında maraqlı olduqlarını bildirib.

## Ölkəmiz beynəlxalq nəqliyyat infrastrukturu bazarının fəal iştirakçısıdır

Bu gün dünyada əsas daşıma fəaliyyətini həyata keçirən 80-ə yaxın beynəlxalq nəqliyyat dəhlizi mövcuddur. Belə bir qlobal şəbəkənin formalaşmasında Avropa bazarı aparıcı rol oynayır.

Avropa İtifaqı daxilində yeni tranzit və nəqliyyat marşrutlarının formalaşması isə "Trans-Avropa Nəqliyyat Şəbəkəsi" əsasında müəyyən edilir. Belə inteqrasiya olunmuş yanaşma regional bazarları üçüncü ölkələrin nəqliyyat şəbəkələri ilə birləşdirməyə imkan verir.

Maliyyə və informasiya axınlarının cəmləşməsi, xidmətin yüksək keyfiyyəti və göstərilən xidmətlərin müxtəlifliyi kapitalın dövriyyəsini sürətləndirir və geosiyasi gücə malik olur. Nəqliyyat rabitəsi dünya iqtisadiyyatının "qan damarları" dır. Böyük tarixi çaylar, okean yolları, dəmir yolları və avtobobil yolları, dünya informasiya magistralı Yer kürəsinin kommunikasiya çərçivəsini təşkil edir və sivilizasiyalararası dialoqun əsasını yaradır.

Coğrafi atlas üzərindən baxsaq görərik ki, ümumilikdə beynəlxalq



nəqliyyat dəhlizləri Şimal-Cənub və Şərq-Qərb yarımkürələrini birləşdirir və iqtisadi-ticari əlaqələrin genişləndirilməsində, sərnişinlərin və yüklərin ən sərfəli yollarla son məntəqəyə çatdırılmasında vasitəçilik edir. Dünya üzrə beynəlxalq nəqliyyat dəhlizlərinin bölgüsünə və intensivliyinə görə təsnifatlaşdırılmasına nəzər salaq: TRANSEUROPEAN NETWORK-Avropa İttifaqı çərçivəsində olan və Avropa ölkələrin bir-biri ilə birləşdirən tranzit; PANAVROPA tranzit koridoru - xüsusilə Mərkəzi və Şərqi Avropada cəmlənir; TRASECA - "Şərq-Qərb" nəqliyyat dəhlizi - Asiyanı, Qafqazı və Avropanı birləşdirən nəqliyyat dəhlizi; İNSTC - "Şimal-Cənub" nəqliyyat dəhlizi - İran ərazisindən keçməklə Fars körfəzi, Hind okianı və Cənub-Şərqi Asiya ölkələri ilə şimali Avropa, Skandinaviya və Rusiyanı birləşdirən nəhəng dəhliz; NAFTA-Şimali Amerika, Meksika və Kanadanın üzərində yerləşən dəhliz.

XXI əsrin əsas hadisələri Qərbi Avropa və Asiya-Sakit Okean iqtisadi və texnoloji inkişaf qütbləri arasında - beynəlxalq biznes üçün ən uzun sərhədin formalaşdığı Atlantik okeanından Sakit okeana qədər cərəyan edəcək. Qərbi Avropa, Asiya-Sakit Okean regionu və ABŞ arasında ticarət əlaqələrinin təmin edilməsində dəniz nəqliyyatı prioritet kimi qalarsa, Avrasiyada dünya marşrutlarının hərəkətindən sonra orta əsrlər tənəzzülə uğramış transkontinental kommunikasiyaların rolu Aralıq dənizindən Atlantik okeanına qədər artacaq.

2014-cü ildən başlayaraq Avropa İttifaqı nəqliyyat sektorunda əsasını Trans-Avropa nəqliyyat şəbəkəsi təşkil edən yeni siyasət yürüdür. Bu siyasətin əsas məqsədi kontinental - qərblə şərqi, şimalla cənubu birləşdirməkdir. Yeni nəqliyyat şəbəkəsində 94 su və 38 hava limanının, həmçinin 15 min kilometr modernləşdirilmiş sürətli dəmir yolunun birləşdirilməsi nəzərdə tutulur. Nəqliyyatın iqtisadiyyatın inkişafında böyük rol oynaması, iqtisadi inkişafı stimullaşdırması, yeni iş yerlərinin yaradılmasına köməyi nəzərə alınaraq, Avropa nəqliyyat şəbəkəsinin inkişafının həm biznesə və həm də sıravi vətəndaşlara böyük həcmdə fayda verəcəyi gözlənilir.

Azərbaycana gəldikdə, əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit imkanları genişdir. Bəri başdan qeyd edək ki, müstəqilliyimizin ilk dönəmində Heydər Əliyevin, son 19 ildən çox müddətdə isə Prezident İlham Əliyevin praqmatik siyasətləri və qətiyyətləri sayəsində Azərbaycan həmin imkanlardan maksimum istifadə edərək regionun əsas tranzit ölkəsinə çevrilib. Qədim İpək yolunun bərpası, TRASEKA proqramının (Avropa-Qafqaz-Asiya dəhlizinin) reallaşdırılması, "Əsrin müqaviləsi", Bakı-Tbilisi-Ceyhan əsas neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmiryol bağlantısı, "Cənub-Qərb" nəqliyyat dəhlizi kimi layihələr bu gün regionun, o cümlədən Azərbaycanın milli təhlükəzliliyinin, qonşu ölkələrlə inteqrasiya əlaqələrinin əsas qarantıdır.

Götürək Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunu. Bu dəmir yolunun ölkəmiz üçün siyasi-iqtisadi əhəmiyyətinin əvəzsiz olması danılmaz faktdır. BTQ region ölkələrinin tranzit imkanlarının artırılmasına, Avropa iqtisadiyyatı ilə inteqrasiyanın dərinləşməsinə, Avropa qonşuluq siyasətinin əhatə dairəsində əməkdaşlığın daha da inkişafına şərait yaradılmasında mühüm rol oynamaqdadır. Bu nəqliyyat dəhlizi Bakı-Tbilisi-Axalkalaki-Qars şəhərlərini əlaqələndirməklə Azərbaycan ilə Trans-Xəzər Beynəlxalq Nəqliyyat Dəhlizi daxilində logistikanın ahəngdarlığında Qazaxıstan, Azərbaycan və Gürcüstan dəniz limanlarının tam gücü ilə işləməsində mühüm rol oynayır.

"Cənub-Qərb" nəqliyyat dəhlizinin (Fars körfəzi-İran-Astara və Xəzər dənizi-Qara dəniz-Avropa) bir sıra marşrutlardan üstünlüyü isə tranzit yükdaşımalarda məsafənin və sərf edilən vaxtın qısa olmasıdır. Bu nəqliyyat dəhlizi İran-Azərbaycan-Gürcüstan-Ukrayna ərazilərindən keçməklə Hindistandan Avropaya və əks-istiqamətə yükdaşımalarda vaxt itkisini əsaslı şəkildə azaldır. Bütün bunlardan göründüyü kimi, Azərbaycanın da əsas iştirakçısı olduğu qlobal layihələr nəqliyyat infrastrukturu bazarının iştirakçıları üçün olduqca əhəmiyyətlidir.

***Natiq ALPSOY,***
***iqtisadçı ekspert***

## Qarabağ narının ixracına başlanılıb

"Azərşəkər" MMC-nin Ağdam rayonunun işğaldan azad edilmiş ərazilərindəki nar bağlarından ilk dəfə məhsul yığılıb.

Bu barədə "Trend"in sorğusuna cavab olaraq "Azərşəkər" MMC-dən məlumat verilib. Bildirilib ki, indiyədək 133 ton məhsul satışı həyata keçirilib ki, bunun 16 tona yaxın hissəsi Sinqapur, Kanada və Rusiyaya ixrac edilib, 117 tonu isə daxili bazara satılıb.



"Məhsul satışından əldə olunan gəlirin bir hissəsi "YAŞAT" Fonduna ianə ediləcək", - deyə məlumatda qeyd edilib.

## Sahibkarlara 41,4 milyon manat subsidiya verilib

2020-ci ilin iyunundan 2023-cü il yanvarın 1-dək koronavirus pandemiyasının nəticələrindən zərər çəkmiş sahibkarlara dəstək çərçivəsində ümumilikdə 41,4 milyon manat subsidiya verilib.

Bu barədə cümə günü Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov tviter səhifəsində yazıb.

Xatırladaq ki, 2021-ci ildə bu proqram çərçivəsində 15,3 milyon manat subsidiya ödənilib.

## Yeni mexanizmin tətbiqi sahibkarların faiz yükünü azaldacaq

Xəbər verildiyi kimi, Prezident İlham Əliyevin imzaladığı fərmana əsasən "İşğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi və kredit faizlərinin subsidiyalaşdırılması qaydası" təsdiq edilib.

İqtisadiyyat Nazirliyinin tabeliyindəki Sahibkarlığın İnkişafı Fondunun şöbə müdiri İsmayıl Hüseynov sahibkarlıq subyektlərinin əldə edəcəyi üstünlüklərdən danışıb. Bildirib ki, mexanizmin tətbiqi işğaldan azad edilmiş ərazilərə investisiya qoyuluşunun sürətləndirilməsi, bankların həmin ərazilərdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə kredit verilməsinin stimullaşdırılması, sahibkarların maliyyə əlçatanlığının təmin edilməsi və sahibkarların faiz yükünün azaldılmasına müsbət töhfə verəcək.

"Nəticədə işğaldan azad edilmiş ərazilərin iqtisadi potensialının reallaşdırılması və iqtisadi aktivliyin bərpası sürətlənəcək. Mexanizm üzrə müraciətlərin qəbulu elektron kredit və zəmanət informasiya sistemi vasitəsilə həyata keçiriləcək. Yəni bu informasiya sistemi vasitəsilə sahibkarlar tərəfindən müraciətlərin həyata keçirilməsi, onların müvəkkil təşkilatlar və Sahibkarlığın İnkişafı Fondu tərəfindən dəyərləndirilməsi, nəticələrin sahibkarlara çatdırılması kimi bütün prosedurlar məhz elektron sistem üzərindən aparılacaq. Hazırda elektron kredit və zəmanət informasiya sisteminin yaradılması və fərmandan irəli gələn tapşırıqların icrası istiqamətində işlər davam edir", - deyə İ.Hüseynov AZƏRTAC-a bildirib.

## Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın müraciəti üzrə dinləmələr keçirəcək

Birləşmiş Millətlər Təşkilatının əsas məhkəmə orqanı olan Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın müraciəti üzrə dinləmələr keçirəcək.




AZƏRTAC xəbər verir ki, bu barədə məhkəmənin yaydığı mətbuat açıqlamasında qeyd edilib.

Bildirilib ki, Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycan tərəfinin Ermənistanın azərbaycanlıların insan hüquqlarının məqsədyönlü şəkildə pozulmasına cavab olaraq, "İrqi ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Beynəlxalq Konvensiya (CERD) çərçivəsində təcili tədbirlər görülməsi məqsədilə etdiyi ikinci müraciətə baxacaq.

Dinləmələr Haaqadakı Sülh sarayında keçiriləcək. Qeyd edək ki, Azərbaycan tərəfi Beynəlxalq Ədalət Məhkəməsinə ikinci müraciətini yanvarın 3-də təqdim edib.


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### "ASCO Nəqliyyat" MMC-yə tələb olunan avtoşinlərin satın alınması məqsədilə **müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 23 yanvar 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***


## Sığorta sahəsində verilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 51.4-cü maddəsinə əsasən, Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən "Qala Sığorta" Açıq Səhmdar Cəmiyyətinə 09 yanvar 2023-cü il tarixində 5 (beş) il müddətinə təkrarsığorta fəaliyyətini həyata keçirməyə icazə verən TSF-0001 nömrəli lisenziya verilmişdir.

# Ermənistan iqtisadiyyatı iflic vəziyyətindədir

*Əvvəli 1-ci səh.*

Artıq iflic vəziyyətində olan Ermənistan iqtisadiyyatının rəqabətə davamlılıq reytinqi aşağı düşməkdədir. Elə ötən il də ölkə iqtisadiyyatının rəqabət imkanları nəzərə çarpacaq dərəcədə zəifləyib. Buna səbəb dövlət rəsmilərinin korrupsiyaya qurşanması, qanunun aliliyi ilə bağlı problemlərin həllini tapmaması və biznes üçün bərabər şəraitin yaradılmamasıdır. Məhkəmə sisteminin müstəqilliyi yarıtmaz vəziyyətdədir, vergilərin toplanmasında korrupsiya halları geniş vüsət alıb, hökumət iqtisadi inhisarçılığa qarşı mübarizə aparmaqda acizdir.

Əvvəllər Rusiya və digər ölkələrin hesabına yaşayan Ermənistan indinin özündə də xaricdən asılı vəziyyətdədir. Xarici ianə və yardımların kəsiləcəyi təqdirdə Ermənistanın daha böyük səfalətə sürüklənəcəyi şəksizdir. Əhalinin getdikcə dərinləşən sosial problemləri, işsizlik, xarici sərmayənin az olması, istehsalın yoxluğu vəziyyəti daha da ağırlaşdırır. Onu da bildirək ki, Ermənistanın ixrac edə biləcəyi məhsul çeşidi böyük deyil və daha çox metal filizi, kənd təsərrüfatı məhsulları və spirtli içkilərlə məhdudlaşır ki, bununla da büdcəni doldurmaq mümkün deyil.

Bütün bunların fonunda korrupsiya Ermənistanın bütün həyat sferalarında kifayət qədər dərin kök salıb və artıq ölkənin milli təhlükəsizliyinə də böyük hədə yaradır. Belə vəziyyət sadə vətəndaşların mövcud hakimiyyətdən duyduğu narazılığın daha kəskin xarakter almasına, hətta sosial partlayış həddinə qədər yüksəlməsinə gətirib çıxarır. Ancaq Ermənistanın tutduğu vəzifənin böyük və ya kiçikliyindən asılı olmayaraq, demək olar ki, bütün məmur ordusu korrupsiya piramidasında yer aldığından bu problemə qarşı mübarizə yalnız kağız üzərindədir və vaxtaşırı verilən quru vədlərdən ibarətdir. Korrupsiyaya qarşı strategiya hazırlansa da, müvafiq şura yaradılsa da, təbliğati kampaniyalar aparılsa da, məmur oliqopoliyası reallıqda bu problemə qarşı hər hansı mübarizənin aparılmasına imkan vermir, əksinə, daha çox var-dövlət toplamaq üçün istənilən qanunsuzluğa gedilir. Nəticədə ölkə həyatının ən müxtəlif sahələrində korrupsiya, rüşvətxorluq daha dərin kök salır, böyük sürətlə çiçəklənir. Məsələn, indi dövlət səviyyəsində açıq etiraf olunur ki, təkcə vergi sistemində korrupsioner, rüşvətxor məmurların sayı iki min nəfərdən artıqdır, media isə bildirir ki, vergilər naziri korrupsiya piramidasının əsas fiqurlarındandır.

Ermənistan parlamentində təmsil olunan deputatlar da korrupsionerlər ordusunun ön sıralarında yer alanlardır. Digər tərəfdən, deputat mandatı alanların böyük əksəriyyəti ölkənin tanınmış biznesmenləri sayılır, onlardan bir çoxu hətta konkret sahələr üzrə ən iri inhisarçılardır.

Ermənistanın Dövlət Gəlirləri Komitəsi hakim partiyanın deputatı Xaçatur Sukiasyanın ailəsinə məxsus "Seal Insurance" şirkətinin dövlət satınalmaları prosesində iştirak hüququ olmayan şirkətlər siyahısına salınmasını tələb edib. "Joxovurd" qəzeti yazıb ki, Ermənistanda dövlət orqanının hakim siyasi qüvvənin deputatına qarşı bu cür münasibəti hər kəsdə maraq doğurub.

Xatırladaq ki, ötən ilin sonunda baş prokurorluq Xaçatur Sukiasyana məxsus olduğu iddia edilən, İrəvanın mərkəzində yerləşən "Seal Plaza" biznes mərkəzinin özəlləşdirilməsinin qanuniliyini məhkəmədə mübahisələndirmişdi. Həmin bina "Grzo Plaza" şirkətinə məxsus olub.

Qeyd edilənlər Ermənistanın üzləşdiyi ümumi böhranın daha da dərinləşəcəyindən xəbər verir və məğlub ölkənin indi daha böyük sürətlə öz məhvinə doğru sürükləndiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# XRİTDX-nin əməkdaşları KART həllindən yeni yayınma metodu aşkarlayıblar

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) Kompüter İnsidentlərinə qarşı Mübarizə Mərkəzinin Zərərvericilərin Tədqiqi Laboratoriyasının (MRLab) əməkdaşları məşhur antivirus provayderi "Kaspersky" şirkətinin KART (Kaspersky Anti-Ransomware Tool) anti-ransomware həllindən yeni yayınma (bypass) metodu aşkarlayıblar.




Bu barədə AZƏRTAC-a XRİTDX-nin Mətbuat xidmətindən məlumat verilib.

Məlumat üçün qeyd etmək lazımdır ki, laborator yoxlamalar zamanı anti-ransomware həlli kimi KART seçilsə də, tətbiq edilən çoxprosesli şifrləmə metodu ilə digər təhlükəsizlik proqram təminatlarından da yayınmaq imkanları olduqca yüksəkdir.

XRİTDX tərəfindən aparılan yayınma testlərinin nəticələri və yaratdığı risklərin nəzərə alınması və aradan qaldırılması üçün müvafiq vendorlara təqdim olunub.

Araşdırma haqqında ətraflı məlumatla videoçarx və ya linkdəki məqalə vasitəsilə tanış olmaq mümkündür:

**https://www.youtube.com/watch?v=71QvKLYi68M**
**https://mrl.cert.gov.az/upload/Files/articles/bypass_kart.pdf**

Məlumat üçün qeyd edək ki, Zərərvericilərin Tədqiqi Laboratoriyası ölkədə sahə üzrə kadr hazırlığını gücləndirmək və tədqiqatları dərc etmək üçün "mrl.cert.gov.az" portalını istifadəyə verib. Bu laboratoriyanın əməkdaşları hazırda "Tusi Paleon" insident tədqiqi alətinin, "Tusi Marağa" avtomatlaşdırılmış zərərverici aşkarlama "sandbox" və "Tusi Couple" zərərverici təhdidlərinin simulyasiyası sistemlərinin milli həll kimi hazırlanması layihələri üzərində çalışırlar.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti vətəndaşlarımıza təhlükəsizlik həllərinə tam etibar etmədən şəxsi kibergigiyenaya diqqətlə yanaşmağı tövsiyə edir.





## OXUCULARIN NƏZƏRİNƏ!

### "AZƏRBAYCAN" *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciət əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 11 yanvar 2023-cü il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 15 (on beş) nəfər fiziki şəxsə, 1 (bir) hüquqi şəxsə və 1 (bir) müstəsna olaraq sığorta agenti fəaliyyəti ilə məşğul olan hüquqi şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

### "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən lisenziyaları ləğv edilən fiziki və hüquqi şəxs olan sığorta agentlərinin siyahısı

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Babazadə Ruqiyyə Nəsrəddin qızı | 29.12.2020 | SA-0203 | 3102103802 |
| 2 | Baxşiyev Emil Azad oğlu | 26.12.2017 | SA-0026 | 1304801362 |
| 3 | Əmirova Səbinə Sarmasovna | 29.12.2020 | SA-0192 | 1403731262 |
| 4 | Fərəcov Fuad Yusif oğlu | 24.01.2014 | 080523 | 2002131042 |
| 5 | Kəsəmənskaya Gözəl Şahbaz qızı | 29.12.2020 | SA-0193 | 1503526452 |
| 6 | Quliyev Qüdrət Qəmbər oğlu | 19.03.2014 | 080551 | 2002895722 |
| 7 | Ləbibova Könül Şahnəzər qızı | 14.08.2009 | 000236 | 1302000492 |
| 8 | Manafov Rauf Fəxrəddin oğlu | 29.12.2020 | SA-0201 | 1403649962 |
| 9 | Mehdizadə Ramin İltifat oğlu | 29.12.2020 | SA-0195 | 3102099552 |
| 10 | Mikayılov Kamran Ələsgər oğlu | 29.12.2020 | SA-0204 | 1602787882 |
| 11 | Musayev Elvin Rauf oğlu | 29.12.2020 | SA-0197 | 1503432132 |
| 12 | Nağızadə İlahə Aydın qızı | 29.12.2020 | SA-0196 | 1904029102 |
| 13 | Niftəliyeva İstimas Arif qızı | 29.12.2020 | SA-0210 | 1503433592 |
| 14 | Rəfiyev Ceyhun Məmməd oğlu | 20.09.2012 | 000757 | 2002412422 |
| 15 | Rüstəmov Xəyal İbadət oğlu | 29.12.2020 | SA-0205 | 2902772203 |
| 16 | "Kompas-Konsaltinq" MMC | 24.01.2012 | 000525 | 1301200621 |
| 17 | "Uğur" Sığorta Agentliyi MMC | 13.06.2011 | 000445 | 1501785411 |


## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti
### müxtəlif təyinatlı xortumların satın alınması məqsədilə **müsabiqə elan edir**

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 26 yanvar 2023-cü il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Mikayıl Useynov 2**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

***Tender komissiyası***


## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov və Vaqif Həsənov Müdafiə Sənayesi Nazirliyi Milli Aerokosmik Agentliyinin baş direktorunun müavini Nazim Əliyevə bacısı

**ZÖHRƏ TƏLƏT QIZI ƏLİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Ağdamdan Vaqif Həsənov Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru professor Ədalət Muradova qardaşı

**YUSİF MURADOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi və kollektivi hərbi prokurorun müavini Şəfahət İmranova anası

**ZƏRNİGAR XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərova dayısı

**SEHRAN MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" Nəşriyyatı, IV mərtəbə*




www.azerbaijan-news.az
contact@azerbaijan-news.az
az.reklam@mail.ru

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4771**
**Sifariş 39**

**Qiyməti 40 qəpik**